www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 23 iyul 2019-cu il Çərşənbə axşamı № 153 (7323) Qiymәti 60 qəpik

**Xəbər**

## Ağdamın işğalından 26 il ötür

yazısı səh.2-də

**Gündəm**

### İrəvanın Qarabağ və Naxçıvan xofu - düşmənin ikili tələsı



Rusiya-Türkiyə strateji tərəfdaşlığı nə vaxtsa Qarabağ üçün ortaq "Yol xəritəsi"nin işlənməsinə gətirə bilər

yazısı səh.11-də

### Türkmənistan prezidentinin "ölüm xəbəri" ilə bağlı ilginc iddia

yazısı səh.5-də

### 1 milyon xərclənən "Şah İsmayıl Xətai" filmi niyə yarımçıq qaldı?

yazısı səh.4-də

### Qarabağ Komitəsi BŞİH-in "yox" qərarı ilə razılaşmadı

yazısı səh.5-də

### Keşikçidağ məsələsi ilə bağlı yeni gəlişmə: XİN-dən açıqlama

yazısı səh.7-də

### Bu gün Bakıda güclü külək əsəcək

yazısı səh.15-də

### İldırımdan necə qorunmalı - rəsmi təlimat

yazısı səh.15-də

### Binəqədi polisindən əməliyyat-profilaktik maarifləndirmə tədbiri

yazısı səh.6-da

### "Yerli heyvanlar, yoxsa xaricdən gətirilən cinslər" dilemması

yazısı səh.13-də

### Zelenskinin partiyası parlament seçkilərində qalib gəldi

yazısı səh.12-də

### Gəncəli "qanuni oğru"dan şok sözlər: "Anam elmlər namizədi, atam akademikdir"

yazısı səh.14-də

# İRƏVAN VƏ MOSKVANIN YENİ MƏKRLİ QAFQAZ PLANI

Ermənistanın Rusiyadan, Rusiyanın isə ermənilərdən əsas gözləntisi; Bakı və Tiflisə qarşı növbəti "Qarabağ ssenarisi" - onu önləməyin bir yolu var...



yazısı səh.8-də

## Bakı növbəti beynəlxalq yarışmaya ev sahibliyi edir - ölkəmiz üçün uğur

**Politoloq:** "Bu festivalın Azərbaycan üçün çox böyük əhəmiyyəti var"

yazısı səh.9-da



### Əbülfəz Elçibəyə həqarətə cəmiyyətdən sərt etirazlar

yazısı səh.6-da



*Zəlimxan Məmmədli:*

### "Azərbaycan və Gürcüstan arasında bir-birilərinin maraqlarını qorumağa məhkum edən sazişə ehtiyac var"

yazısı səh.4-də



### Rauf Arifoğlu-53: Aşırımlı, təlatümlü ömrün sətirləri...

yazısı səh.3-də

YENİ MÜSAVAT
N 153 (7323) 23 iyul 2019



# Prezident İlham Əliyev Milli Mətbuat Günü münasibətilə facebook-da paylaşım edib




**Prezident İlham Əliyevin "facebook" səhifəsində 22 iyul - Milli Mətbuat Günü münasibətilə status paylaşılıb. "Report" xəbər verir ki, status "Bünövrəsi "Əkinçi" ilə qoyulmuş milli mətbuatımız bu gün Azərbaycanın dünyada eşidilən səsidir" qeydi ilə təqdim olunub.**

Qeyd edək ki, bu gün Azərbaycan Milli Mətbuatının yaranmasından 144 il ötür.

# Qəzetlərə 1 milyon manat ayrıldı

**Prezident İlham Əliyev Azərbaycan Respublikasında nəşr olunan qəzetlərə əlavə maliyyə yardımının ayrılması haqqında**

Sərəncam imzalayıb. Sərəncamda deyilir:

- Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasında nəşr olunan qəzetlərin maddi-texniki bazasının gücləndirilməsi məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasında nəşr olunan qəzetlərə əlavə maliyyə yardımı göstərmək üçün Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fonduna 1,0 (bir) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz kifayətdir.

**Telefon: (012) 434 93 01**

# Ağdamın işğalından 26 il ötür

**Bu gün Azərbaycanın Ağdam rayonunun Ermənistan Silahlı Qüvvələri tərəfindən işğalından 26 il ötür.**



Ağdam rayonu 1993-cü il iyulun 23-də erməni silahlı birləşmələri tərəfindən işğal edilib. İşğal nəticəsində Ağdam rayonunun 1154 kvadrat kilometr ərazisi Ermənistanın nəzarətinə keçib. 147 min nəfər əhalisi olan Ağdamın yalnız 22,6 faizi Azərbaycanın nəzarətindədir. Ermənilər Ağdamın işğal olunmuş ərazilərində tarixi abidələri, qəbiristanlıqları, yaşayış obyektlərini, xəstəxanaları, kitabxanaları, məktəbləri, idarə və müəssisələri dağıdıblar. Ağdam uğrunda gedən döyüşlərdə Azərbaycan tərəfi 6 mindən çox şəhid verib. Doğma yurdlarından köçkün düşən rayon əhalisinin əksəriyyəti ölkənin müxtəlif bölgələrinə səpələniblər. Hazırda Ermənistan "Hərbi münaqişələr zamanı mədəni sərvətlərin qorunması haqqında" Haaqa Konvensiyasının və "Mədəni sərvətlərin qeyri-qanuni dövriyyəsi haqqında" Paris Konvensiyasının müddəalarını kobudcasına pozaraq Azərbaycanın mədəni sərvətlərini talamaqda davam edir.

İşğaldan əvvəl Ağdamda 1898 sayda sosial-iqtisadi tikinti obyekti, 17 sənaye, 31 tikinti, 753 ticarət, 397 ictimai iaşə, 220 məişət müəssisəsi, 480 sosial bina, 24 min 446 yaşayış tikililəri, həmçinin 54 məktəbəqədər uşaq, 116 ümumtəhsil müəssisəsi, bir neçə ali məktəb filialı, 13 mədəniyyət evi, muzeylər, 109 mədəniyyət klubu olub. Təxmini rəqəmlərə görə, Ağdam rayonunun işğalı nəticəsində ölkəmizə 252 milyon ABŞ dolları dəyərində maddi ziyan dəyib.

# Sürücülərə növbəti dəfə sarı zolaq xəbərdarlığı edildi

**Bakı Nəqliyyat Agentliyi sürücülərə müraciət edib. «Trend»in məlumatına görə, müraciətdə bildirilir ki, paytaxt Bakıda keçirilən XV Avropa Gənclər Yay Olimpiya Festivalının səmərəli təşkili məqsədilə Bakı Nəqliyyat Agentliyi tərəfindən nəqliyyat tədbirlərinin icrası davam etdirilir:**

"Bildiyiniz kimi, müəyyən olunmuş marşrutlar üzrə çəkilmiş sarı zolaqlar idmançıların və digər rəsmilərin idman obyektlərinə vaxtında və təhlükəsiz çatmasını təmin etmək məqsədi daşıyır. Lakin bəzi şəxsi nəqliyyat vasitəsi sürücüləri bir çox hallarda zolağa daxil olaraq avtobusların qarşısına çıxmaqla, ara məsafəsi gözləmədən arxası ilə irəliləməklə və ya ani manevrlər etməklə hərəkətə mane olaraq qəza şəraiti yaradırlar.

Qeyd edilənləri nəzərə alaraq Bakı Nəqliyyat Agentliyi hərəkət iştirakçılarını xüsusən də sürücüləri festival müddətində yol hərəkəti qaydalarına, o cümlədən də sarı zolağın tələbinə əməl etməyə çağırır.

Şəhərimizdə keçirilən əvvəlki oyunlarda olduğu kimi festivalın davam etdiyi günlərdə də hərəkət iştirakçılarının tətbiq edilən müvəqqəti dəyişikliklərə anlayışla yanaşacaqlarına ümid edirik.

Hərəkət iştirakçılarının həyata keçirilən tədbirlərə əsl vətəndaşlıq, xalqımıza xas olan yüksək mədəniyyət və qonaqpərvərlik mövqeyindən yanaşması ölkəmizin müsbət imicinin daha da möhkəmlənməsinə mühüm töhfə verəcəkdir".



# Abşeronda ana 9 yaşlı oğlunu döydü, uşaq evdən qaçdı

**Abşeron rayonunda azyaşlı yaşadığı evi tərk edərək küçədə gecələyib. «Trend»in məlumatına görə, Abşeron rayon sakini, 9 yaşlı Tunar Əhmədlinin anası Aysel Hacıyeva tərəfindən döyüldükdən sonra evi tərk etdiyi güman edilir. Küçədə gecələyən uşaq bir neçə gündən sonra polislər tərəfindən tapılaraq "Uşaq Sığınacağı Reinteqrasiya Mərkəzi"nə gətirilib. Uşağın ilk ifadəsində məlum olub ki, 4 gün küçədə qalıb və buna səbəb anası tərəfindən şiddətə məruz qalmasıdır.**

Baş vermiş hadisə ilə bağlı "Azərbaycan Uşaqları Birliyi" İctimai Birliyi və Uşaq Sığınacağı Reinteqrasiya Mərkəzinin sədri Kəmalə Ağazadə «Trend»ə açıqlamasında bildirib ki, hadisə ilə Abşeron Rayon Polis İdarəsi və Rayon Prokurorluğu ciddi məşğul olur:

"Uşaq bizə polis əməkdaşları tərəfindən gətirilib, onun üzərində zorakılıq izləri də var idi. Anasını tapmaq mümkün olmadığından biz sosial şəbəkələrdə Tunarın şəklini paylaşdıq və onu tanıyanlardan bizimlə əlaqə saxlamağı xahiş etdik. Ötən gün isə uşağın atası Rasim Əhmədli bizimlə əlaqə yaratdı və bu gün mərkəzə gəldi. Onunla söhbətdən sonra məlum oldu ki, Aysel Hacıyeva ilə boşanıblar, bu evlilikdən iki övladları var. Tunar uzun zaman atası ilə qalmağı israr edib, ancaq aliment probleminə görə Aysel övladını atasının yanına buraxmayıb və uşağa qarşı şiddət göstərib".

**Mərkəz sədri qeyd edib ki, Tunar hazırda məhkəmə-tibb ekspertizasına göndərilib:**

"Biz sonradan Aysel Hacıyeva ilə də görüş keçirmişik və ilkin ehtimallara görə, uşağın bədənində olan xəsarətlər ana tərəfindən olub. O bildirib ki, Rasim Əhmədli uzun zamandır yığılan borcu az miqdarda ödəyib. Aysel hazırda yeni ailə qurub və bu nikahdan iki övladı var, birinə isə hamilədir. Tunar hazırda ekspertizadadır və çox güman ki, hadisə öz təsdiqini taparsa, anaya cinayət işi açılacaq, istintaqa cəlb olunacaq".

# Bakıda evdən 70 min manatlıq ev kinoteatrı oğurlanıb

**Bakıda evdən oğurluq olub. "Report" xəbər verir ki, Xəzər rayonu, Şüvəlan qəsəbəsində Vadim Əsədova məxsus bağ evindən 66 300 manat dəyərində qızıl-zinət əşyaları və 70 000 manatlıq ev kinoteatrı, həmçinin balıq ovu üçün tüfəng oğurlanıb.**

Fakta bağlı polis araşdırma aparır.

# "Bir kəmər, bir yol" inqilabi bir layihədir" - deputat

**"Çinin təşəbbüsü ilə həyata keçirilən "Bir kəmər, bir yol" böyük kommunikasiya, siyasi, iqtisadi, mədəni, ən əsası inqilabi bir layihədir".**

APA-nın xəbərinə görə, bunu Milli Məclisin deputatı Hikmət Babaoğlu Bakıda "Si Cinpinin yeni dövr Çin səciyyəvi sosializm ideyası" mövzusunda keçirilən konfransda çıxışı zamanı deyib.

O qeyd edib ki, ötən illər ərzində Azərbaycan bu layihənin həyata keçirilməsi ilə bağlı öz tövsiyələrini verib: "Digər tərəfdən, Çindən Avropaya gedən yolda Ələt limanı vacib rol oynayacaq. Bu yaxınlarda Azərbaycana səfər edən Avropa İttifaqı Şurasının prezidenti Donald Tusk Ələt limanın əhəmiyyətini vurğulayıb".



# Bakı-2019: ilk günün medalçıları mükafatlarını alıb

**Bakıda keçirilən Avropa Gənclər Yay Olimpiya Festivalının ilk günündə medal qazanan idmançıların mükafatlandırılma mərasimi keçirilib.**

APA-nın məlumatına görə, tədbir Heydər Əliyev adına İdman-Konsert Kompleksində təşkil olunub.

Açılış mərasimindək baş tutan güləş yarışlarında mükafat qazanan 15 idmançının təltif olunması tədbiri bu idman növü üzrə növbəti medal qarşılaşmaları ərəfəsində keçirilib. Yunan-Roma və sərbəst güləşin hər ikisində 45 kq ilə 55 kq çəki dərəcəsində "üçlüy"də düşənlər medalları ilə təltif olunublar.

Sərbəst güləş üzrə 45 kq çəki dərəcəsində bir bürünc medal sahibini tapdığından, ümumilikdə 7 idmançı bu əyardan, 4-ü qızıl, 4-ü gümüşə yiyələnib.

Azərbaycan millisinin dörd üzvü də fəxri kürsüyə qalxıb, Azərbaycan bayrağı qaldırılıb. Sərbəst güləşçi Murad Haqverdiyev (45 kq) və yunan-Roma güləşçisi Fərid Sadıxlı (45 kq) qızıl medalını alıb, onların şərəfinə Azərbaycan himni səslənib. Sərbəst güləşdə Əbülfəz Nəsirov (55 kq) gümüş, yunan-Roma güləşində Nihad Məmmədli (55 kq) bürünc mükafatını alıb.

YENİ MÜSAVAT
N 153 (7323) 23 iyul 2019

# Rauf Arifoğlu-53: Aşırımlı, təlatümlü ömrün sətirləri...



**Bu gün ömrünün 30 ilini Azərbaycan mediasına vermiş Rauf Arifoğlunun doğum günüdür. Milli Mediamızın 144 yaşının tamam olmasının ertəsi günü Rauf Arifoğlunun da 53 yaşı tamam olur.**

53-30=23. Sadə bir düstur. 23 yaşında qəzetçiliyə başlamış Rauf Arifoğlunun peşə stajı artıq qəzetçi olmadığı illərdən 7 il çoxdur.

Uşaqlıq illərini, təhsil dövrünü çıxsaq, onun yazısız günü olmayıb, müstəqil həyata başlar-başlamaz, özünü sətirlərin arasında tapıb. O, publisistik yaradıcılığına hələ 1987-ci ildə, Məmməd İsmayılın nəşr etdiyi "Gənclik" jurnalında başlamışdı.

Son 30 ildə Rauf Arifoğlu media sahəsində elə uğurlara imza atıb ki, bunu etmək hər adama, hətta milyonda bir adama nəsib olan iş deyil.

Bu zirvəyə çatmaq üçün Rauf Arifoğlu dolaylı, aşırımlı, sis-dumanlı yollar keçib, iztirablı, möhnətli günlər keçirib, neçə-neçə təlatümlərə sinə gərib. Nə yazmaqla bitəndir, nə danışmaqla. O günlərin ağırlığını yalnız yaşayanlar bilər. Və açığı, hər üzünü, hər sıxıntısını, hər məhrumiyyətini təsvir etsən, o cür həyatı bir kimsə yaşamaq istəməz. Hələ bu ağır həyatı yaşamağı bacarıb-bacarmamağı bir kənara qoyaq. İki dəfə həbs həyatı yaşamaq nə deməkdir...

Rauf Arifoğlu elə bir ilham, enerji və fəhm sahibidir ki, o, futbol məşqçisi olsaydı, rəhbərlik etdiyi komandanın səsi mütləq zirvələrdən gələrdi; yazıçı-dramaturq olsaydı, əsərləri ölkə hüdudlarından çox-çox kənarlara səs salardı, fizika-kimya alimi olsaydı, ixtiraları ölkəyə böyük faydalar gətirərdi...

Başqa sözlə, o, jurnalistikadan başqa hansı peşəyə könül versəydi, hansı işə girişsəydi, orada mütləq uğur qazanar, birinci olardı.

Rauf Arifoğlunun xarakterik özəllikləri arasında ən bariz olanlar məqsədyönlülük, tələbkarlıq, əzmkarlıq, yorulmazlıqdır. O, hədəfə yetişmək yolunda önünə çıxan bütün maneələri bir-bir aşmağa hazırdır, bunun üçün öz potensialını, eləcə də yaxın ətrafındakıların təcrübəsini səfərbər etməyə qadirdir.

Rauf Arifoğlunun uğurlarının mayasında bu keyfiyyətlər durur. Fitri istedad da öz yerində. Onsuz heç bir uğur mümkün deyil.

"Yeni Müsavat" Media Qrupuna daxil olan yaradıcı kollektivlər bu gün 53 yaşı tamam olan Rauf Arifoğluna daha yüksək nailiyyətlər və təbii ki, cansağlığı arzulayır.

Qoy Rauf bəyin bütün arzuları çin olsun, yetişmək istədiyi hədəflərə çatsın. Gün o gün olsun ki, ortaya belə bir düstur da çıxsın: 23+75=98+...

❑ **YM**

---

# Adını 4 ildə 42 dəfə dəyişən qəzet, özünü efirdə güllələyən jurnalist

## Media tarixinin ən unikal və kuryoz olayları

**Kütləvi informasiya vasitələrinin həyatımızdakı rolu danılmaz faktdır. İndi qəzetsiz, televiziyasız, internet mediasız həyatımızı təsəvvür edə bilmirik.**

Milli Mətbuat Günü münasibətilə Musavat.com kütləvi informasiya vasitələri haqqında yaxın-uzaq tariximizdəki çoxlarımızın bilmədiyi maraqlı faktları, hadisələri təqdim edir.

1930-cu il aprelin 18-də "BBC"nin diktoru efirə qeyri-adi xəbərlə çıxıb: "Bugünkü xəbər proqramında sizlərə ilk xəbərimiz odur ki, heç bir yeni xəbər yoxdur". Xəbərlərin yerinə fortepiano musiqisi səsləndirilib.

1973-cü ildə tanınmış amerikalı teleaparıcı Coni Karson öz şou proqramında kiçik bir zarafatı ilə ölkə sakinlərini xeyli xərcə salıb. Teleaparıcı verilişdə zarafatla qeyd edib ki, ölkədə tualet kağızlarının istehsalında böhran vəziyyətidir və artıq maqazalarda da defisitə çevrilib. Tamaşaçılar aparıcının fikrini ciddi qəbul ediblər. Səhərisi gün Coni Karson bu zarafatına görə üzr istəsə də, artıq gec olub. Çünki bütün mağazalardan tualet kağızlarının hamısı alınıb.

Mətbuat tarixində ən maraqlı faktlardan biri də bir qəzetin dörd ildə 42 dəfə adını dəyişməsi olub. 1898-ci ildə rus dilində nəşrə başlayan "Şimal diyarı" qəzeti hakimiyyətə qarşı müntəzəm tənqidi çıxışlarına görə 1905-ci ildə bağlanıb. Başqa çıxış yolu tapmayan redaksiya kollektivi qəzetin adını dəyişməyə məcbur olub. Beləliklə, dörd il ərzində qəzetin adı "şimal" sözü saxlanmaqla 42 dəfə dəyişdirilib.

1938-ci ildə "Taym" jurnalı Hitleri "İlin adamı" elan edib. Nəşrin tarixində ilk dəfə olaraq "İlin adamı" elan edilmiş şəxsin şəkili jurnalın üz qabığına verilməyib.

London hərracında "Boston qlob" qəzetinin 12 aprel 1912-ci il tarixli buraxılışının bir nüsxəsi 304 dollara satılıb. Qəzetin həmin sayında "Titanik"lə bağlı ilk məlumat yerləşdirilib.

Kağız qıtlığı ucbatından 1921-ci il mayın 17-də "İzvestiya" qəzeti kətanda çap olunub





The Boston Daily Globe.

TITANIC SINKS, 1500 DIE

Carpathia Picks Up 675 Out of 2200---Races for New York---Survivors Mostly Women and Children.

POLICE ORDER DORR'S ARREST

Lynn Chief Accuses Him of the Murder of George E. Marsh.

Giant Steamer Goes Down Before Help Arrives.

Virginian or Parisian May Have Some Survivors

White Star Officials Admit



СѢВЕРНЫЙ КРАЙ

ОТКРЫТА ПОДПИСКА

ѢВЕРНЫЙ КРАЙ.

və qəzetdə belə bir müraciət yayılıb: "Qəzetləri qoruyun. Onlar çox məhduddur. Oxuduqdan sonra başqasına verməyi unutmayın".

Dünyada qadınlar üçün ilk qəzet "Frauentsinmer Tsaytunq" 1798-ci ildə Almaniyada nəşr olunmağa başlayıb.

Qəzet sözü ilk dəfə 16-cı əsrdə İtaliyada meydana gəlib. Belə ki, həmin dövrdə gündəlik çıxan xəbərlər vərəqəsinin qiyməti İtaliyanın ən kiçik pul sikkəsi olan 1 "qazeta"ya satılıb və bu ad da o vaxtdan qalıb.

İlk dəfə oxucu məktubu 1786-cı ildə Almaniyada nəşr olunan qəzetlərin birində çap olunub. Sonradan məlum olub ki, oxucu elə həmin qəzetin əməkdaşıdır. Ancaq buna baxmayaraq, bu hadisədən sonra oxucu məktublarının qəzet səhifələrində çap edilməsi kütləviləşib.

İlk qəzet elanı 1657-ci ildə İngiltərə nəşrlərinin birində çap olunub. Həmin elan II Karlın itinin axtarışı ilə bağlı olub.

İlk ödənişli televiziya reklamı isə 1 iyul 1941-ci ildə Amerika Birləşmiş Ştatlarında təqdim olunub. Amerika televiziyası 10 saniyəlik çarxda "Bulova Watch Company" şirkətinə məxsus saatları reklam edib. Şirkət sahibinə ilk reklam cəmisi doqquz dollara başa gəlib.

Dünyanın ən böyük tirajla nəşr olunan qəzetlərinə Yaponiyada çap olunan "Yomiuri Şim-bun" qəzeti başçılıq edir. Qəzet 14 milyon tirajla çap olunur.

Almaniya-SSRİ müharibəsindən sonra SSRİ-də televiziyanın yayım keyfiyyətini artırmaq üçün yeni teleqüllənin tikintisi ilə bağlı qərar verilib. Sovet alimi Nikolay Nikitin Ostankino televiziya qülləsinin layihəsini bir gecəyə hazırlayıb.

Fransanın satirik qəzeti olan "La Bougie du Sapeur" oxucuların görüşünə dörd ildə bir dəfə gəlir. Nəşrin nizamnaməsinə uyğun qəzet fevralın 29-da işıq üzü görür. 1980-ci ildən nəşr olunan qəzet 200 min tirajla çıxır. "La Bougie du Sapeur"nin Azərbaycan dilində tərcüməsi "minaaxtaranın şamı" mənasını daşıyır. Məhz qəzetin belə adda olması 19-cu əsrdə fransız personajı olan komik minaaxtaran Kamamberin adı ilə bağlıdır. Kamamberin doğum günü isə fevralın 29-na təsadüf edir. "La Bougie du Sapeur" qəzetinin bir əsrlik abunə qiyməti isə 100 avrodur. Satışdan və abunədən əldə olunan gəlir isə autizm xəstəliyindən əziyyət çəkən uşaqların hesabına köçürülür.

Jurnalistika ilə bağlı daha maraqlı, amma daha dəhşətli bir fakt. Jurnalist Kristin Çabbak "Ey-Bi-Si"nin Florida filialındakı "Kanal 40" televiziyasında fəaliyyətə başlayanda ona kriminal xəbərlərin hazırlanması həvalə edilib. Gündəlik olaraq canlı efirdə oğurluq, soyğunçuluq, qətl və digər cinayət hadisələri haqqında materiallar təqdim etmək məhz Kristin Çabbaka tapşırılıb. Televiziya rəhbərliyi ümumilikdə onun işindən razı olsa da, günü-gündən verilişlə bağlı tələblərini də artırıb. Belə ki, onların əsas tələbi o olub ki, kriminal xəbərlərdə gedən reportajlar daha qəddar, daha qanlı olmaqla tamaşaçıları şoka salmalıdır. Jurnalist bu tələbləri nəzərə alıb. 1974-cü ilin iyul ayında Kristin Çabbak özünəqəsdlə bağlı reportaj hazırlamaq üçün hüquq-mühafizə orqanlarının nümayəndələri ilə görüşüb. Özünəqəsdin həyata keçirilməsində əsasən hansı silahdan istifadə olunması ilə maraqlanıb. Bu sorğuda reportajla yanaşı jurnalistin öz şəxsi marağı da olub. Kristin Çabbaka məlumat veriblər ki, qəsdlər əsasən 38 kalibrli tapança ilə həyata keçirilir. Elə həmin gün jurnalist belə bir silahı əldə edib.



la Bougie du Sapeur

est sans reproche...

N°10 Lundi 29 février 2016

Numéro Collector

Périodique paraissant tous les 29 février

POUR QUOI FAIRE?

DE QUI SE MOQUE-T-ON ?

DE NOUS, BIEN SÛR !

AXEL LUTZ SE CONFIE À LA BOUGIE DU SAPEUR

Qui SERA LA FEMME DU FUTUR PRÉSIDENT ?

LA RUBRIQUE SCIENTIFIQUE ET SEXUELLE EST EN PAGE 15

Le message de la Princesse Kate

Növbəti gün kanalın rəhbəri Robert Nelson əməkdaşlarla növbəti yığıncaq keçirib. Bu dəfə də kriminal xəbərlərlə bağlı iradlarını səsləndirərək qeyd edib ki, tamaşaçı bu verilişdə qan görmək istəyir, kriminal reportajlardan qan qoxusu gəlməlidir.

Səhərisi gün 15 iyul 1974-cü ildə, adi iş günlərinin birində Kristin Çabbak öz iş otağında həmişə olduğu kimi efirə hazırlaşıb. Plana əsasən həmin gün canlı yayımda onun studiya qonağı olmayıb, o, yalnız tamaşaçıları kriminal xəbərlərlə tanış etməliymiş. Beləliklə, jurnalist canlı efirdən kriminal xəbərləri tamaşaçılara oxumağa başlayıb. Dördüncü xəbər restorandakı qətl hadisəsi ilə bağlı olub. Ancaq bu hadisə ilə bağlı videoçəkiliş olmayıb. Bu məqamda Kristin Çabbak canlı efirdə tamaşaçılara müraciət edib:

- Hörmətli tamaşaçılar, "Kanal 40" televiziyası rəhbərliyinin efirdə qan nümayiş etdirilməsi ilə bağlı apardığı siyasəti nəzərə alaraq siz canlı efirdə canlı qan görəcək ilk tamaşaçılar olacaqsınız.

Müraciətdən sonra Kristin Çabbak tapançanı çıxardaraq sağ qulağından atəş açıb. Baş verən hadisədən şoka düşən efir rejissoru hadisə zamanı efiri saxlaya bilməyib. Tamaşaçılar jurnalistin efirdə özünü necə güllələdiyinin, boyun nahiyəsindən axan qanın şahidi olublar.

Kristin Çabbakı dərhal hospitala çatdırsalar da onun həyatını xilas etmək mümkün olmayıb. 14 saatdan sonra jurnalist dünyasını dəyişib.

❑ **İlham CƏMİLOĞLU,**
**Musavat.com**

# O məşum epitet...



**Xalid KAZIMLI**

**Kimsə 25-30 (bəlkə də daha çox) il əvvəl baməzəlik edib, söz oynadıb, tanıdığı bir-iki jurnalisti nəzərdə tutaraq "zurnalist" deyə təhqiramiz, aşağılayıcı söz icad edib.**

Hər ilin bu günü gələndə o epiteti ağ-qara fərqi qoymadan, pis mənada ayrı-seçkilik etmədən bütün jurnalistlərə aid edirlər. Həm də kütləvi şəkildə.

Bu sırada ildə bir yazı yazmayan, bütün günü idarə və müəssisələrin qabağında sü... (lənət şeytana)... süslənib dolaşanlar, cip növlü maşınlarda gəzənlər də gedir, hər gün oturub yazısını yazan, qonorardan başqa heç kəsdən heç nə ummayan zəhmətkeş qələm adamları da.

Hələ bu təhqir olunanlar, aşağılayanlar heyətində başqaları da var: ömründə bir kəsə mədh yazmayanlar, həmişə obyektiv olan, olmağa çalışanlar, düzü düz, əyrini əyri yazanlar, heç vaxt ədalətsiz fikrə, haqsız ittihama imza atmayanlar, adları hər hansı bir əyri işdə çəkilməyənlər...

Beləələri onlarcadır, yüzlərcədir... İddiasız olduqları, özlərini gözə soxmadıqları üçün onları çox adam tanımır. Bir də onlar ona görə çox tanınmırlar ki, artıq ciddi yazı, məqalə oxuyan azdır. Oxuyanlar da o sadə imzaları yadda saxlamırlar, daha çox özünü qalmaqal, intriqa predmeti edən, bu yolla adını çıxaranları tanıyırlar.

Amma "zurnalist" epiteti ilə təhqir olunma günü gəlib çatanda bu sözü onlara da yapışdırırlar.

Başqa peşələrin yaxşısı-pisi yoxdurmu? Əlbəttə, var. Əslində, onların da peşə bayramı olanda ellikcə aşağılanırlar. Əksər tənqidçilər çox vaxt hamını ümumiləşdirir, ölkədə yaxşı müəllim, savadlı həkim, dürüst polis, vicdanlı ticarətçi və sair və ilaxır normal peşə adamları olmadığını elə asanca iddia edirlər ki... əl yeri, istisna faiz belə qoymurlar.

Həqiqət budur ki, elə deyil. Peşəsindən asılı olmayaraq, vicdanlı adamlar hər peşədə var və onlar ölkənin acı reallıqlarının yol verdiyi həddə, hətta o gerçəkliklərə sinə gərərək, qarşı gedərək vicdanlı, dürüst, obyektiv ola bilirlər.

Yəni kütləvi satılmışıqdan, kütləvi xəyanətdən, kütləvi dönüklükdən söhbət gedə bilməz. Çox zaman vitrinə baxaraq anbara qiymət verilir. Vitrin isə çox zaman aldadıcı olur.

"Dünən sizin bir iş yoldaşınız gəlmişdi bizim şöbəyə, rəis cibinə 5-10 manat pul qoydu, yola saldı". Bu sözləri bu müəllifə bir toy məclisində uzaqdan-uzağa qohumluğu çatan polis kapitanı deyib. "İş yoldaşımız"ın adını soruşdum, kapitan "yadımda qalmayıb" dedi. Adamın işlədiyi qəzetin, saytın adını xəbər aldım, polis kapitanı güclə yadına saldı ki, jurnalistin təqdim etdiyi vəsiqədə "qanun" sözü görüb. Bir az da sorğu-sualdan sonra məlum oldu ki, rəisdən 5-10 manat alan hər kimdirsə, nəşriyyatda yerləşən, adı olub, özü olmayan, eləcə ona-buna vəsiqə paylayıb xərac yığdıran "reket qəzet"lərdən birinin işçisi olub.

Amma gəl, gör ki, o bunu bizim iş yoldaşımız hesab edir. Sanki ölkədə nə qədər jurnalist və özünü jurnalist hesab edən adam var, hamısı bir müəssisədə, bir yerdə işləyir, "poqon yoldaşları"dırlar və hamısı da bir-birini mütləq tanıyır.

Əlbəttə, bizim peşənin adamları arasında da hər cür adam var - özünə, peşəsinə, imzasına hörmət etməyənlər, əmrə müntəzirlər, sədəqə umanlar, beş cümləni ard-arda səhvsiz yaza bilmədiyi halda müxtəlif auditoriyalarda, hətta telekanallarda jurnalistikadan dərs keçənlər, karyerası boyunca yeddi dəfə cild dəyişənlər və sair və ilaxır.

Lap tutaq ki, onlara "zurnalist" demək olar, amma yuxarıda bəhs etdiyim zəhmətkeş, gözütox, istedadlı, təvazökar qələm adamlarını onların gözünə qatıb aşağılamaq olmaz.

Bəd ayaqda hamı onların, əsl jurnalistlərin üstünə qaçır. Müşkülü olanlar, haqqı pozulanlar, dərdini deməyə tribuna axtaranlar, işi düşənlər... hər kəs əvvəl-axır o vicdanlı jurnalistlərdən mədəd umur.

Ancaq elə ki, işləri düzəlir, hamını eyni gözdə görmək şövqü baş qaldırır, hamı ellikcə "zurnalist" olur.

"Məni zorla ölkəyə göndərirlər, aeroporta jurnalist göndərin", "Evimə basqın var, məni həbs etmək istəyirlər, fotoreportyor göndərin", "Sabah məhkəməmdir, jurnalist göndərsəniz, yaxşı olar" və sair və ilaxır bu kimi xahişlər olanda "yaxşı, bir-iki zurnalist tapıb göndərərik" desək, xoşunuz gələr?

Bu düşük epiteti hər kəsə eyni həvəslə yapışdırmayın, ümumiləşdirməyin. Ömrünü azad sözə, haqq-ədalətin bərqərarına həsr edən jurnalistlərin qəlbini qırır, bu peşəni seçdiklərinə peşman edirsiniz.

# Gürcüstanda aksiyalar səngiyir, lakin...

## Zəlimxan Məmmədli: "Azərbaycan və Gürcüstan arasında bir-birilərinin maraqlarını qorumağa məhkum edən sazişə ehtiyac var"

**Üç həftədən çoxdur ki, Gürcüstanda parlamentin qarşısında aksiya keçirilir. Sonuncu aksiyaların tələbi daxili işlər naziri Giorgi Qaxarianın istefası idi.**

"Yeni Müsavat"a danışan Gürcüstan parlamentinin azərbaycanlı deputatı **Mahir Dərziyev**in sözlərinə görə, artıq aksiya iştirakçılarının sayı xeyli dərəcədə azalıb. Deputat bildirib ki, aksiya iştirakçılarının nə istədikləri ona da məlum deyil. Onun sözlərinə görə, aksiyanı təşkil edənlər Gürcüstana zərər vurmaq, iqtisadiyyatını zəiflətmək yolunu tutublar. Tələblərin bir qismi yerinə yetirilib və aksiyaya çıxanların sayında kəskin azalma olduğu söylənilir. Deputat onu da bildirmişdi ki, aksiyalarda azərbaycanlılara da rast gəlinir.

Onu da qeyd edək ki, iyulun 22-də Gürcüstanın Saqareco rayonunun azərbaycanlılar və gürcülərin birgə yaşadığı Qambori kəndinin sakinləri etiraz aksiyası keçiriblər. Sakinlər kənddə içməli su probleminin həll olunmasını tələb ediblər.

Kəndin mərkəzi avtomobil yolunu bağlayan sakinlər 15 ildir susuzluqdan əziyyət çəkdiklərini bildiriblər. Onların sözlərinə görə, problemlə bağlı Saqareco bələdiyyəsinə dəfələrlə müraciət olunsa da, məsələ həll olunmamış qalıb. Polisin müdaxiləsindən sonra etirazçıların bağladığı yolda hərəkət qismən bərpa olunub. Qambori sakinləri Saqareco bələdiyyəsinin rəhbər şəxsləri ilə görüş tələb edirlər.

**"Yeni Müsavat"a danışan "Borçalı" Cəmiyyətinin sədri, siyasi şərhçi Zəlimxan Məmmədli bildirdi ki, orada baş verən proseslər daimi şəkildə izləyirlər:**

"Hazırkı hakimiyyətin gəlməsi ilə anti-Azərbaycan, anti-türk ovqatı sezilir. Həm "Elat bayramı"nın yasaqlanması, həm də bizim ora girişimizə qadağa qoyulması çox şeydən xəbər verir. "Elat bayramı"nın əleyhinə 2014-cü ildə hətta Gürcüstanın televiziya kanallarında qara piar aparılırdı. Mənim guya separatçı olmağımla bağlı materiallar verilirdi. Soydaşlarımızın arasında onların mədəniyyət tədbirlərinin yasaqlanması ilə bağlı saxta imzalar da toplanırdı. Sonrakı mərhələlərdə iki dövlətin əməkdaşlığına cavab verməyən bir sıra addımlar atıldı. Bütün bunlar hesab edirəm ki, sistemli fəaliyyətdir və İvanaşvili hakimiyyətinin Rusiyanın himayəsi əsasında gəlməsini göstərir. Artıq buna şübhə edənlərin də sayı çox azdır. Regionda Azərbaycan və Gürcüstan xalqları bir-birilərinə dayaq ola bilərlər. Bu ölkələrin insanları və siyasiləri də zaman-zaman qeyd etdiyim istiqamətdə bəyanatlar veriblər. İki dövlətin yaxınlığı Qafqazın gələcəyinin parlaq olmasına işarədir. Əgər bu dövlətlərin, xalqların yaxınlığı pozularsa, Rusiyanın hərtərəfli formada bütün maraqları təmin olunur. Strateji olaraq bizim münasibətlərin korlanması, Cənubi Qafqazın yenidən qan gölünə çevrilməsi Rusiyanın istəyinə uyğun gəlir. Bunun üçün də addımlar atılır. Hələ Gürcüstanda Xocalı abidəsi ilə bağlı məsələləri demirəm. Birdən-birə Keşikçidağ məsələsi gündəmə gəldi və yeni seçilən prezidentin ilk səfərinin Azərbaycana olması və bundan sonra da belə hadisənin baş verməsi, olayın 3-5 nəfər provokatorun işi olmadığını göstərir".



Zəlimxan Məmmədli

**Z. Məmmədli bildirib ki, Gürcüstanda keçirilən aksiyalarda səslənən şüarların əksəriyyəti Azərbaycanın əleyhinədir:** "Gürcüstan siyasətində oturuşmuş bu zehniyyətin zərərli olması qənaətindəyəm. Ona görə də özümüzü aldatmayaq ki, Keşikçidağda da bir neçə nəfər provokator gəlib, belə bir addımlar atdı. Əslində isə hesab edirəm ki, məsələ idarə olunan prosesdən ibarətdir. Onları həbs etdilərmi? Nə üçün Gürcüstan tərəfi həmin adamların adlarını bizim cəmiyyətə vermədi? Bu, dövlətlərarası münasibətləri pozmaq, eyni zamanda Azərbaycanı daha çıxılmaz vəziyyətə salaraq, Rusiyanın diqtələrini ölkəmizə qəbul etdirmək istəkləri var. Hər halda, mən belə düşünürəm. Ona görə də məsələlər Gürcüstan tərəfinə aktiv şəkildə qoyulmalıdır. "Borçalı" Cəmiyyəti olaraq biz də öz təkliflərimizi hazırlamışıq və bu yaxınlarda cəmiyyətə təqdim edəcəyik. Kompleks formada yanaşma ortaya qoyulmalıdır ki, Azərbaycan və Gürcüstan arasında bir-birilərinin maraqlarını qorumağa məhkum edən sazişə ehtiyac var. Bu, bizə ona görə lazımdır ki, üçüncü dövlətlərin münasibətləri pozmasında saziş qarant olsun. Eyni zamanda düşünürəm ki, dövlətlərarası yeni komissiyanın da yaradılmasına gərək var. Orada alimlər, mütəxəssislər, siyasilər və ictimaiyyət nümayəndələrinin olmasına ehtiyac var. Çünki biz küçələrdə onların zaman-zaman ürək bulandıran çıxışlarından cəmiyyəti qurtarmalıyıq".

**❑ Əli RAİS,**
**"Yeni Müsavat"**

# 1 milyon xərclənən "Şah İsmayıl Xətai" filmi niyə yarımçıq qaldı?

## Əbdül Mahmudov: "İnanırıq ki, rəsmi qurumların dəstəyi ilə yenidən bu filmin çəkilişlərinə başlaya biləcəyik"

**Bu günlərdə böyük dövlət xadimi, Səfəvilər dövlətinin qurucusu və ilk hökmdarı, klassik Azərbaycan şairi Şah İsmayıl Xətainin doğum günü qeyd olundu. Xatırladaq ki, Şah İsmayıl Heydər oğlu Səfəvi 1487-ci il iyul ayının 17-də (digər versiya ilə iyulun 23-də) Ərdəbil şəhərində anadan olub.**

Hər il iyul ayında Xətaidən söz düşəndə onunla bağlı çəkiləcək film də yenidən müzakirə obyektinə çevrilir. Qeyd edək ki, təxminən 2000-ci ilin əvvəllərində dövlət sifarişi ilə Səfəvi hökmdarı barədə film çəkilişlərinə start verildiyi bildirilirdi. Filmin böyük ekran əsəri olacağı gözlənilsə də, sonradan bilinməyən səbəblərdən çəkilişlər yarımçıq saxlanıldı. Bəs bu filmin sonrakı taleyi necə olacaq?



**Məsələ ilə bağlı "Yeni Müsavat"ın əməkdaşı adıçəkilən filmin rejissoru Əbdül Mahmudovla əlaqə saxlayıb. Rejissor bildirib ki, çəkilişləri bərpa etmək üçün rəsmi qurumlara müraciət edib:** "Artıq 40 ildir ki, bu filmin çəkilməsi üçün çalışıram. Uzun-uzadı mübarizəmdən sonra 2000-ci ildə çəkilişlərə başladıq. Belə ki, həmin dövrdə mərhum prezident Heydər Əliyevin təşəbbüsü ilə filmin ssenarisi qəbul edildi və filmin çəkilməsinə xeyir-dua verildi. Hətta filmin çəkilişləri üçün 1 milyon pul ayrıldı. Mən filmin çəkilişləri üçün məkanlar seçməyə başladım, aktyor seçimi aparıldı və birdən filmin çəkilişləri dayandı. Bütün hər şey "Azərbaycanfilm" kinostudiyasının arxivində saxlanılır".

**Rejissor deyir ki, film 2 hissəli kinoepopeya formasında çəkilməli idi:** "Birinci iki seriyanın ssenarisi hazırdır. Bununla bağlı 1 milyon manat pul xərclənmişdi, sonra bəlli olmayan səbəblərdən işlər dayandırıldı və bunun səbəbi barədə hələ də mənə bir söz deyilməyib. Bu, böyük ekran əsəri olmalıdır. Şah İsmayıl Xətai zamanında bizə 2 milyon 800 min kvadrat kilometrə çatan ərazi qoyub gedib. Baxın, bu gün isə ərazimiz cəmi 86, 600 min kvadrat km-dir.

Qeyd edim ki, filmin ssenarisi hazırda Kinematoqrafçılar İttifaqının sədri Şəfiqə Məmmədovanın stolunun üstündədir. İnanırıq ki, rəsmi qurumların dəstəyi ilə yenidən bu filmin çəkilişlərinə başlaya biləcəyik".

Məsələyə aydınlıq gətirmək üçün Mədəniyyət Nazirliyinin Kinematoqrafiya şöbəsinin filmlərin qeydə alınması, təbliği və yayımı sektorunun müdiri Cəmil Quliyevlə əlaqə saxladıq. C.Quliyev hazırda bölgələrin birində istirahətdə olduğunu və buna görə sualımıza cavab verə bilməyəcəyini dedi.

**❑ Xalidə GƏRAY,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 153 (7323) 23 iyul 2019

# Qarabağ Komitəsi BŞİH-in "yox" qərarı ilə razılaşmadı

## 23 iyulda mitinq keçirilə bilər

**İyulun 22-də KXCP qərargahında Qarabağ Komitəsinin 23 iyul mitinqi ilə bağlı fövqəladə toplantısı keçirilib. Toplantıda Bakı Şəhər İcra Hakimiyyətinin 23 iyula təyin olunmuş Qarabağ mitinqi ilə bağlı Qarabağ Komitəsinin müraciətinə verdiyi cavab müzakirə edilib. Qarabağ Komitəsinin üzvləri bildiriblər ki, BŞİH-in cavabı əslində mübahisəlidir. Bununla bağlı hətta Qarabağ Komitəsinin rəhbərliyinə daxil olanlardan KXCP sədri Mirmahmud Mirəlioğlu, AXP sədri Pənah Hüseyn və AĞ Partiyanın sədri Tural Abbaslı və Əvəz Zeynallı Bakı Şəhər İcra Hakimiyyətinə, Baş Prokurorluğa, Daxili İşlər Nazirliyinə və Bakı Şəhər Baş Polis İdarəsinə müraciət ünvanlayıblar. Müraciətdə bildirilir ki, Bakı Şəhər İcra Hakimiyyəti Ağdam rayonunun Ermənistan tərəfindən işğalı günü Dağlıq Qarabağ və digər ərazilərimizin Ermənistanın işğalı altında qalmasına etiraz etmək, həmçinin torpaqlarımızın azadlığı işinə ictimai dəstəyi nümayiş etdirmək məqsədilə 23 iyul 2019-cu il tarixdə, Bakı şəhəri Yasamal rayonu ərazisindəki "Məhsul" stadionunda, saat 17-dən 18. 30-dək, "Qarabağa azadlıq" şüarı ilə 10 min nəfərin iştirakı ilə mitinq keçiriləcəyi haqqında xəbərdarlıq müraciətinə "23 iyul 2019-cu il tarixdə planlaşdırdığınız mitinqin keçirilməsini məqsədəuyğun hesab etmirik" cavabını verib: "Göründüyü kimi, Bakı Şəhər İcra Hakimiyyəti təşkilatçısı olduğumuz mitinqin keçirilməsini məqsədəuyğun saymasa da, həmin aksiyanı qadağan etmir (məhdudlaşdırmır) bunlarla əlaqədar hər hansı xəbərdaredici, çəkindirici ifadələr işlətmir. Beləliklə, "planlaşdırdığınız mitinqin keçirilməsini məqsədəuyğun hesab etmirik" ifadəsinin qadağanedici norma (hərəkət) olmaması, bunun yalnız inzibati orqanın subyektiv mövqe ifadəsi olması barədə tövsifi də qanunu qüvvəyə minmişdir. Bakı Şəhər İcra Hakimiyyəti 23 iyul tarixinə planlaşdırdığımız mitinq barədə xəbərdarlıq müraciətimizə də "23 iyul 2019-cu il tarixdə planlaşdırdığınız mitinqin keçirilməsini məqsədəuyğun hesab etmirik" şəklində cavabı verirsə, bu, mitinqin sanksiyalaşdırılması deməkdir və biz bunu belə başa düşüb qəbul edirik.**

Yuxarıdakılara əsasən Ağdam rayonunun Ermənistan tərəfindən işğalı günü Dağlıq Qarabağ və digər ərazilərimizin Ermənistanın işğalı altında qalmasına etiraz etmək, həmçinin torpaqlarımızın azadlığı işinə ictimai dəstəyi nümayiş etdirmək məqsədilə 23 iyul 2019-cu il tarixdə, Bakı ş. Yasamal rayonu ərzisindəki "Məhsul" stadionunda, saat 17-dən 18. 30-dək, "Qarabağa azadlıq" şüarı ilə, 10 min nəfərin iştirakı ilə keçirməyi planlaşdırdığımız mitinqlə əlaqədar AR qanunlarına görə dövlət orqanları olaraq görməli olduğunuz tədbirləri həyata keçirməyinizi xahiş edirik. Öz tərəfimizdən, mitinq təşkilatçıları olaraq mitinqin keçirilməsi ilə bağlı qanunla müəyyən olunmuş vəzifələrimizi bildiyimizi, bu vəzifələri yerinə yetirəcəyimizi, o cümlədən bu sahədə dövlət orqanları ilə əməkdaşlıq edəcəyəmizi təsdiq edirik".

Qarabağ Komitəsi toplantının sonunda mitinqin keçirilməsinin məqsədəuyğunluğu barədə qərar qəbul edib.

**Bununla belə, günün ikinci yarısında AXP sədri Pənah Hüseyn və AĞ Partiyanın sədri Tural Abbaslı Qarabağ Komitəsinin 23 iyula təyin etdiyi "Qarabağa azadlıq" mitinqinin təhlükəsizlik məsələlərini müzakirə etmək üçün Bakı Şəhər Baş Polis İdarəsinə gediblər. Bu barədə "Yeni Müsavat"a açıqlamasında Pənah Hüseyn məlumat verib. Onun sözlərinə görə, BŞİH-ə öz təşəbbüsləri ilə gediblər və İctimai Təhlükəsizlik İdarəsinin rəisi ilə görüşüblər:** "Biz mənim, Mirmahmud Mirəlioğlunun, Tural Abbaslının və Əvəz Zeynallının Bakı Şəhər İcra Hakimiyyətinə, Baş Prokurorluğa, Daxili İşlər Nazirliyinə və Bakı Şəhər Baş Polis İdarəsinə ünvanladığımız müraciəti də təqdim etdik. Gedişimizin məqsədi kütləvi aksiyalarla bağlı qanunun müəyyən elədiyi vəzifələrin yerinə yetirilməsi məsələsini müzakirə etmək və BŞİH-in cavabının mitinqə icazə vermək olduğunu bir daha çatdırmaq idi. Bizə bildirildi ki, BŞİH icazə verməsə, aksiyanı qanunsuz hesab edirik və polis aksiyanın qarşısını almaq üçün hərəkətə keçəcək. Bununla belə, bizə yekun rəsmi yazılı cavab verilmədi. İyulun 23-ü saat 15-ə kimi rəsmi cavabları olacaqsa, baxıb buna uyğun hərəkət edəcəyik. Hazırda isə Qarabağ Komitəsi mitinqə hazırlıq işlərini aparır, tribuna hazırlanması və digər texniki işləri həyata keçirir.


Pənah Hüseyn

Onu da deyim ki, BŞİH-də bizə dedilər ki, şəhərdə beynəlxalq idman festivalı keçirilir və polis bu tədbirin təhlükəsizliyini təmin etməyə yönəldilib. Biz də bunu başa düşdüyümüzü dedik və bildirdik ki, BŞİH-in bizə rəsmi cavabında bu məsələ barədə heç bir fikir yoxdur".

**E.SEYİDAĞA,**
**"Yeni Müsavat"**

# Türkmənistan prezidentinin "ölüm xəbəri" ilə bağlı ilginc iddia

## Politoloq: "Mərkəzi Asiya regionu geopolitik qarşıdurma arealına daxil olub"

**"Türkmənistan prezidenti Qurbanqulu Berdiməhəmmədovun ölümü ilə bağlı yayılan dezinformasiyalar türkmən müxalifətinin ölkədə çevriliş etmək məqsədindən irəli gəlirdi".**



Bunu rusiyalı siyasi analitik Denis Korkodinov deyib. Korkodinov Türkmənistan hökumətindəki mənbələrə istinadən bildirib ki, regionda fəaliyyət göstərən islamçı qruplaşmalarla birgə türkmən müxalifəti, o cümlədən İŞİD terror təşkilatı prezidentin Aşqabadda olmamasından istifadə etdi: "Onlar yerli ictimaiyyət və güc strukturlarının yardımı və dəstəyinə ümid edərək çevrilişə cəhd göstərdilər. Amma Türkmənbaşı müxalifətin planlarından əvvəlcədən xəbərdar edilmişdi və rus kəşfiyyatının yardımı ilə çevrilişin qarşısını ala bildi. Bu, Türkmənistan siyasi elitasının daxilində bir sui-qəsdin ortaya çıxmasına imkan verdi", - Korkodinov bildirib. (Axar.az) Onun sözlərinə görə, yaxın günlərdə Aşqabadda müxalifətin "təmizlənməsi" həyata keçiriləcək: "Həddən artıq şəxsə cinayət işi açılacaq. Cəhdin bəzi iştirakçıları məhv ediləcək".

Qeyd edək ki, bazar günü Türkmənistan lideri Qurbanqulu Berdiməhəmmədovun ölümü barədə məlumat yayılmışdı. Bildirilirdi ki, Almaniyada müalicə olunan anasını yoluxmağa gedən Q.Berdiməhəmmədov ölkədən çıxan kimi ssenari işə salınıb.

Prezidentin ölümü barədə ilk olaraq politoloq və "Qovorit Moskva" radiostansiyasının Avrasiya Problemləri Monitorinq Mərkəzinin direktoru Aslan Rubayev yerli mənbəyə istinadən xəbər vermişdi. O, bu barədə türkmən iş adamlarından xəbər tutduğunu bildirib. Onların sözlərinə görə, xüsusi xidmət orqanlarında işləyən şəxslər hadisənin prezident məzuniyyətdə olan zaman baş verdiyini deyiblər. Bildirilib ki, Qurbanqulu Berdiməhəmmədov iyulun 15-də məzuniyyətə çıxıb. Həmçinin siyasətçinin ölümü barədə ərəb ölkələrindəki həyat tərzini işıqlandıran teleqram-kanal da məlumat yayıb. Yerli müxalifət qurumlarından birinin "Youtube" kanalı prezidentin iyulun 20-də öldüyünü xəbər verib. İlk saatlarda xəbər rəsmi səviyyədə nə təsdiq, nə də təkzib edilib ki, bu da şayiələrə yol açıb. TASS-ın sorğusuna bu ölkənin Rusiyadakı səfirliyindən cavab gəlib. Səfirliyin nümayəndəsi bildirib ki, Türkmənbaşının ölüm xəbəri tamamilə yalan informasiyadır.

Üstündən bir gün keçəndən sonra Türkmənistan prezidenti Qurbanqulu Berdiməhəmmədov səhiyyə və tibb sənayesi işçiləri günü münasibətilə ölkənin tibb işçilərini təbrik edib. O, öz təbrik məktubunda ölkə səhiyyəsində qazanılan uğurları qeyd edib. Bildirib ki, hazırda ölkə üzrə səhiyyə sisteminin Ümumdünya Səhiyyə Təşkilatının standartlarına uyğun təkmilləşdirilməsi üzrə işlər uğurla həyata keçirilir.

"Xüsusilə ana və uşaqların sağlamlığı və qorunması təmin edilib, bir sıra yoluxucu xəstəliklər tamamilə aradan qaldırılıb, sağlam həyat tərzi prinsipi tətbiq olunub", - deyə prezident məktubunda bildirib.

**Politoloq Məhəmməd Əsədullazadə "Yeni Müsavat"a bildirdi ki, Türkmənistan prezidentinin ölüm xəbərinin yayılması siyasi rezonansa səbəb oldu:** "İlk növbədə maraqlı qüvvələr əsasən sistem daxilindən qaynaqlanırdı. Çünki elita daxilindəki müxalif qüvvə sarayda çevriliş yolu ilə yeni hakimiyyət qurmaq planına malikdir. İŞİD-in burada rol alması inandırıcı deyil. Çünki Orta Asiya ölkələrindən fərqli olaraq, İŞİD bu ölkədə geniş yayılmayıb. Baxmayaraq ki, Əfqanıstanla sərhəddə onların mövcudluğu var. Türkmənistan prezidentinə qarşı bu dezinformasiya xalqda panika yaratmaq və çevrilişə cəhd kimi bir siyasi gediş idi".

**Ekspert deyir ki, burada maraqlı olan dövlətlər də var:** "Hesab edirəm ki, kəşfiyyatın fəal müdaxiləsi ilə bunun qarşısı alınıb. Zaman-zaman Türkmənistanda sui-qəsd hadisələri baş verir. Bu, saray-daxili çevrilişdir. Hesab edirəm ki, Qurbanqulu Berdiməhəmmədov radikal addımlar atacaq və ona qarşı baş verən bu kimi siyasi proseslərin qarşısını alacaq. Təbii ki, bu prosesdə Kreml ona dəstək verəcək". **Politoloq onu da qeyd etdi ki, Mərkəzi Asiya regionu geopolitik qarşıdurma arealına daxil olub:** "Buradakı siyasi kataklizmlər gözlənilləndir".

**Cavid TURAN,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 153 (7323) 23 iyul 2019

# Əbülfəz Elçibəyə həqarətə cəmiyyətdən sərt etirazlar

## Tanınmış siyasət adamları Leyla Yunusun absurd iddialarını rədd edir

**Leyla Yunusun milli azadlıq hərəkatının lideri, mərhum eks-prezident Əbülfəz Elçibəyi "KQB agenti" adlandırması Azərbaycan cəmiyyətində etirazla qarşılanıb. Ölkənin tanınmış siyasətçilərindən Leyla Yunusa sərt cavablar gəlməkdədir.**

**AXP sədri Pənah Hüseyn** Leyla Yunusu mənasız və səhv ifadələr işlətməkdə ittiham edib: "Belə mənasız və səhv ifadələr haqqında, ümumiyyətlə, fikir bildirməyin özü düzgün deyil. Əbülfəz Elçibəy haqqında kimlər tərəfindənsə zaman-zaman ortaya atılan iftiraların gündəmə gətirilməsinə ehtiyac yoxdur. Elçibəy haqqında hədyan danışanlar qələt eləyir. Elçibəy Azərbaycanın dahi şəxsiyyətlərindən biridir. Azərbaycanın müstəqilliyinin bərpası ilə nəticələnmiş milli hərəkatın lideridir. Hələ də yüz minlərlə insan tərəfindən sevilən şəxsiyyətdir, şəxsən mənim də liderimdir. Bundan əlavə, Elçibəy böyük ideoloq, filosof və dövlət adamıdır. Onun adı Məhəmməd Əmin Rəsulzadə ilə yanaşı çəkilir və çəkilməyə də davam edəcək. Elçibəyin doğum və anım günlərində məzarı başında, müstəqillik və Dünya Azərbaycanlılarının Həmrəyliyi günlərində "Elçibəy" deyə hayqırıb, şüar səsləndirən gənclərin sevgisi, Elçibəy haqqında boş-boş danışan, ona qarşı hələ də düşmənçilik edənlərə ən gözəl cavabdır".


Pənah Hüseyn


Mirmahmud Mirəlioğlu


Qüdrət Həsənquliyev

**KXCP sədri Mirmahmud Mirəlioğlu isə Leyla Yunusun Elçibəy haqda fikirlərini anormallıq adlandırıb:** "Mən onun cavabını elə öz təbirincə də verməyi məqsədəuyğun sayıram. Yunusun doğma dilində buna belə deyirlər. Luçşe pozdna, çem nikoqda. Lap doğma dilində isə.... aveli uş, kan yerbek..."

**BAXCP sədri, deputat Qüdrət Həsənquliyev isə bildirib ki, Əbülfəz bəyin ruhunu incidən Leyla Yunusun QRU-nun (Mərkəzi Kəşfiyyat İdarəsi) agenti olmasını AXC hakimiyyətində çoxları bilsə də, yetərincə peşəkarlıq olmadığından xüsusi xidmət orqanları onu ifşa edib məsuliyyətə cəlb edə bilmədi:** "Leyla Yunus həmin dövrdə Müdafiə Nazirliyinə işə agent kimi göndərilmişdi və qəbul olunmuşdu. Yoxsa adamdan soruşarlar ki, sən tarixçi və akademiyanın elmi işçisi, bir gün də nə jurnalist, nə də analitik fəaliyyətlə məşğul olmamış adam, sən hara Müdafiə Nazirliyinin Mətbuat və Analitik Mərkəzi hara? Leyla Yunus AXC-də təfriqəçiliyin əsasını ilk qoyanlardan biri olub. Onun AXC hakimiyyəti dövründə yaxınlıq etdiyi adamların kimliyinə baxsanız onların hamısının agent olduğunu görəcəksiniz. İndi də eyni vəziyyət təkrarlanır. Onun bu sərsəmləmələrini yayan xanım da agentdir, özünə Elçibəyçi deyib Rusiyanın Rüstəmi ilə, Qumun əl öpən məzunu ilə, o cümlədən bu əməkdaşlıq edib müdrikcəsinə susan Milli Şura rəhbərləri də. Bu tipli adamlar müttəfiqlərini özləri seçmir. Elçibəyin Heydər Əliyevi hakimiyyətə dəvət etməsinə gəldikdə isə Elçibəyi yanındakı agentlərlə yanaşı, yaxın ətrafında olan çoxları onu qorxudan satmışdı. Ölkə idarəolunmaz vəziyyətə gəlmişdi. Həmin dövrdə ölkəni fəlakətdən və məhv olmaqdan yalnız Heydər Əliyev bu agentləri zərərsizləşdirməklə xilas edə bilərdi. Xalqını özündən artıq sevən Elçibəy də bunu bildiyindən onu Bakıya dəvət etdi və Leyla kimi casusların arzularını gözündə qoydu".

**Azərbaycan Liberal Partiyasının lideri Lalə Şövkət Hacıyevanın isə Elçibəyi müdafiə edən kiçik yazısı sosial şəbəkədə paylaşılıb:** "Milli ruhumuzun sahibi Elçi Bəy mənim üçün kimdir? Elçi Bəy mənim üçün susaraq danışdığım və baxışaraq anlaşdığım yeganə insan idi! Elçi Bəy böyük bir insan idi! Böyük məqam sahibi, böyük zənginlik sahibi olmaq asandır. Böyük insan adına layiq olmaq müstəsna bir durumdur. Kimdir Böyük İnsan? Böyük amacı-hədəfi olan və ömrünü onun uğrunda qurban verən İnsan. Hər türlü yolu məşru-qanuni görməyən, yalnız əxlaq və mənəviyyat yolu ilə gedən, ləyaqətini, idealını, məğrurluğunu üstün tutan! Əyilməyən, bükülməyən, mərdcə yaşamağı və ölməyi bacaran İnsan! Budur Böyük İnsan! Budur Böyük Bəy! Budur Elçi Bəy!"

**Böyük Azərbaycan Partiyasının sədri Elşad Musayev isə bildirdi ki, heç kim Leyla Yunusa haqq verməyib ki, Elçibəy kimi şəxsiyyətə "KQB agenti" desin:** "Elçibəy hakimiyyəti dövründə biz müxalifətdə olmuşuq. Amma Leyla Yunus vəzifədə olub. İndi heç kim ona haqq verməyib ki, Elçibəyə böhtan atsın, damğa vursun. Elçibəy milli-azadlıq hərəkatının lideri olub. Milli-azadlıq hərəkatının liderini agent kimi təqdim eləmək bizim hamımıza böyük təhqirdir. Elçibəy hakimiyyətində təmsil olunub ondan yararlananlar var. Onlar təəssüf ki, səslərini çıxarmırlar. Deməli, onlar əslində səmimi Elçibəyçi olmayıblar. Əsl Elçibəyçilər kənarda olmuş insanlardır.

Erməni qarışığı olanların mili insanlara patoloji nifrəti var. Leyla Yunusun Elçibəy haqda fikirlərini rədd edirəm. KQB agenti olmuş insanların özləri Elçibəy kimi insanları qəsdən qaralayırlar. Cəmiyyət Elçibəy kimi şəxsiyyətin təhqir edilməsinə təpkisini verməlidir".

❑ **Etìbar SEYÌDAĞA,**
**"Yenì Müsavat"**

# Binəqədi polisindən əməliyyat-profilaktik maarifləndirmə tədbiri

## Polis əməkdaşları avaralıq və dilənçiliklə məşğul olan 22 nəfəri saxlayıb; sürücülərin yol hərəkəti qaydalarını pozmaları ilə bağlı 94 fakt aşkarlanıb və...










**Binəqədi Rayon Polis İdarəsi kompleks əməliyyat-profilaktik maarifləndirmə tədbiri həyata keçirib. "Yeni Müsavat"ın reportyor qrupunun iştirak etdiyi tədbir çərçivəsində vətəndaşlara ətraf mühitin mühafizəsi, həyat və sağlamlıq məsələləri ilə bağlı izahlar verilib, inzibati xətaya yol verməni vərdişə çevirənlərə cərimələr tətbiq edilib.**

Binəqədi Rayon Polis İdarəsinin rəhbər heyətinin iştirakı ilə başlanan tədbir çərçivəsində rayonun əsas küçələrində ümumi görünüşə xələl gətirən, binaların fasadlarında asılan qurutma zivələri ilə bağlı tədbirlər görülüb.

Polis əməkdaşları avaralıq və dilənçiliklə məşğul olan 22 nəfəri saxlayıblar. Həmin şəxslərlə profilaktik söhbətlər aparılıb, yaşayış yerləri müəyyən olunub, qeydiyyat ünvanları yoxlanılaraq həmin rayonlara qaytarılmaları təmin edilib. Belə aydın olur ki, avaralıq və dilənçiliyi peşəyə çevirən bu şəxslər Binəqədi ərazisində mənzil kirayələyirlər. Heç bir şəraiti olmayan belə mənzillərdə 10-12 avara və dilənçi gecələyir. Əsasən şəhərin mərkəzi küçələrinə "yürüş" edib dilənirlər. İşləmək, əziyyətə qatlaşıb pul qazanmaq haqda heç düşünmək belə istəmirlər. Küçələrə düşüb dilənməkdir peşələrinin adı. Polislərin profilaktik söhbətləri də belə görünür ki, bu adamlara xoş deyil. Naəlac dayanıb söhbətə qulaq asır, tezliklə gəldikləri rayona qaytarılacaqları saatı gözləyirlər. Yenidən Bakıya qayıtmayacaqlarını da kimsə söyləyə bilməz.

Küçələrdə ticarətlə məşğul olanlar da tədbir çərçivəsində maarifləndirici söhbətlərə cəlb olundular. İzah edildi ki, ticarətlə xüsusi ayrılmış bazarlarda, Kənd Təsərrüfatı Nazirliyinin təşkil etdikləri yarmarkalarda rahat şəkildə məşğul ola bilərlər. 57 belə fakt müəyyən edildi. Binəqədi rayonunda antisanitariya ilə bağlı 15 fakt üzə çıxarıldı. Tədbirdə iştirak edən hüquq-mühafizə orqanı əməkdaşlarının sözlərindən belə aydın oldu ki, bəzi sakinlər küçələrin təmiz saxlanılması kimi tələbləri qulaqardı etməyi vərdişə çeviriblər. Küçələrin zibillənməsi, ərazidə təmizlik normalarının pozulması, epidemioloji fonun çirklənməsi də reydlərdən kənar qalmayıb. Kompleks əməliyyat-profilaktik tədbirlər çərçivəsində antisanitariya faktları da müəyyən olundu.15 inzibati xəta haqda protokol tərtib olunub. İlk dəfə belə xətaya yol vermiş vətəndaşlara xəbərdarlıq elan olundu. Bəzi vətəndaşlar isə yol verdikləri antisanitar əməlləri dəfələrlə təkrar etdiklərinə görə cərimə olundular. 40 manat cərimə küçələri natəmiz saxlamaq vərdişini yadırğama üçün keçərli üsul hesab olunur. Belə cərimə ödəyən vətəndaşlar növbəti dəfə zibili küçəyə atmazdan əvvəl ciblərində artıq 40 manat olub-olmamasını aydınlaşdırmaq zorunda qacaqlar.

Müxtəlif cinayətlər törətdiklərinə görə 16 nəfər axtarışda olan saxlanılıb.

Yol hərəkəti qaydaları əleyhinə olan xətalar ümumi rayon ərazisindəki xətaların cəmindən artıqdır. Tədbirlər çərçivəsində keçirilən reydlər zamanı sürücülərin yol hərəkəti qaydalarını pozmaları ilə bağlı 94 fakt, sükan arxasına sərxoş halda keçən 3, 1 avtoxuliqan, piyadaların yolun müəyyən edilməyən hissədən keçmələri ilə bağlı 54 fakt müəyyən olunaraq qanunvericiliyin müvafiq tələblərinə uyğun olaraq tədbir görüldü. Piyadaların yolun nəzərdə tutulmayan hissəsindən keçmələri, xüsusilə öz həyatlarını riskə ataraq yola çıxmaları dəfələrlə qəza şəraitinin yaranması ilə müşayiət olundu. Hüquq-mühafizə orqanı əməkdaşlarının maarifləndirici söhbətlərinə, piyadaların yolun nəzərdə tutulan hissəsindən - zebradan keçməli olmaları iradlarına "tələsirəm" deməklə haqq qazandıran piyadalar az deyildi. Həyatlarını riskə atmalarına, sürücülərin həyatını alt-üst edəcək addımlarına haqq qazandırmaq üçün tələsdiklərini dönə-dönə deyir, tələskənliyin həyatları bahasına başa gələcəyinin fərqinə də varmırdılar. Yolda tələskənliyin hansı nəticələrə gətirib çıxara biləcəyi ilə bağlı proflaktik söhbətlər vətəndaşların taleləri haqda düşünmələrinə bir vasitə idi. Ümumilikdə gün ərzində yüzlərlə Binəqədi sakini ilə həyat və sağlamlıq üçün maarifləndirici söhbətlər aparıldı, inzibati xəta hərəkətlərinə yol verməmələri izah olundu.

❑ **E.MƏMMƏDƏLÌYEV,**
**"Yenì Müsavat"**

YENİ MÜSAVAT
N 153 (7323) 23 iyul 2019

**"Keşikçidağ məntəqəsində Azərbaycan sərhədinin pozulması ilə yaranan insident təsadüfi bir təxribat deyil. Bu təxribat qabaqcadan düşünülüb və Cənubi Qafqazda sülh və əmin-amanlığın təminatı olan Azərbaycan-Gürcüstan-Türkiyə dövlətlərinin dostluq münasibətlərinə qarşı yönəlib. Hesab edirəm ki, bu təxribat Cənubi Qafqazda hərbi, siyasi və iqtisadi maraqları olan güc mərkəzləri və onların əlaltısı olan Ermənistandakı rejimin sifarişi ilə törədilib. Həmin mərkəzlər bu təxribatı Gürcüstanda olan ermənipərəst qüvvələrin iştirakı ilə törədiblər".**



# Keşikçidağ məsələsi ilə bağlı yeni gəlişmə: XİN-dən açıqlama

**Leyla Abdullayeva:** "İki ölkə ekspertlərinin görüşünün keçirilməsi nəzərdə tutulur"

**Əflatun Amaşov:** "İnanıram ki, ortaq məxrəcə gəlinəcək və məsələ həllini tapacaq"

**Bunu "Report"a açıqlamasında AMEA-nın Tarix İnstitutunun direktoru, Milli Məclisin deputatı, akademik Yaqub Mahmudov deyib. O bildirib ki, Ermənistandakı faşist rejiminin bu işin əsas sifarişçilərindən biri olduğu heç kimdə şübhə doğurmur:** "Ermənistanda yürüdülən yanlış siyasət nəticəsində ermənilər çox ağır vəziyyətdə yaşayırlar. Əgər İrəvanda yanlış siyasət yürüdülməsəydi, Ermənistan Cənubi Qafqazda strateji layihələrin iştirakçısı ola bilərdi. Ermənistandakı rejim Cənubi Qafqazda sülhün və təhlükəsizliyin pozulması üçün əlindən gələni edir. Onların arxasında olan qüvvələr erməni rejiminə yaxından köməklik edirlər. Bu cür təxribatlar Azərbaycan-Gürcüstan-Türkiyə münasibətlərini poza bilməz. Amma hər bir təxribata qiymət verilməli və münasibət bildirilməlidir. Bizi narahat edən odur ki, Gürcüstanda müəyyən qüvvələr mütəmadi olaraq bu cür təxribatlara əl atırlar və həmişə cəzasız qalırlar. Əgər Gürcüstanın ərazisində gürcü dövlətçiliyinə həmişə sadiq olan, Gürcüstanın tarixində mühüm rol oynayan azərbaycanlılara qarşı siyasət yürüdülür və oradakı məscidlərimizin divarlarına donuz kəlləsi yapışdırılırsa, bu işin icraçıları cəzalandırılmalıdır".

**Y.Mahmudovun sözlərinə görə, gürcü təxribatçılarının öz sərhədlərini pozaraq Azərbaycan sərhədçilərinə hücum etməsi Gürcüstanın cavabdeh qurumlarının rəhbərlərinin məsuliyyətsizliyi üzündən baş verib:** "Axı bir qrup şəxs hər iki dövlətin sərhədini necə poza bilər? Buradan belə çıxır ki, guya Gürcüstan öz dövlət sərhədlərini layiqincə qoruya bilmir. Azərbaycanla dostluq münasibəti və strateji tərəfdaşlıq müqəddəsdirsə, sərhədlərin pozulmasına heç cür göz yumula bilməz. Gürcüstanın keçmiş müdafiə naziri-nin, "Qalib Gürcüstan" siyasi hərəkatının lideri İrakli Okruaşvilinin, Azərbaycan sərhədinə gələrək xalqımıza qarşı sayıqlayan partiya liderinin təhqirləri və azərbaycanlıları "çoban" adlandırmaları bizdə ciddi narahatlıq doğurub. Eyni zamanda Azərbaycanda keçirilən beynəlxalq idman yarışları zamanı Bakıya gələn iki gürcünün Şəhidlər Xiyabanında "Keşikçidağ bizimdir" deyə plakat qaldırması da ciddi narahatlıq doğurmalıdır".

**Akademik hesab edir ki, Azərbaycan-Gürcüstan dostluğu əbədidir:** "Amma bu dostluq münasibətlərini pozmağa çalışanlara qarşı qardaş Gürcüstanda ciddi tədbirlər görülməlidir. Qardaşlıq və dostluq münasibətlərində ikili standartlar ola bilməz. Azərbaycan-Gürcüstan-Türkiyə münasibətləri pisləşərsə, bu, ən çox gürcü xalqına mənfi təsir göstərəcək. Təəssüfedici hal odur ki, hələ də Gürcüstanın müvafiq qurumları bu insidentin ciddi qüsur olduğunu dövlət səviyyəsində etiraf etməyiblər. Təxribatların törədilməsində erməni lobbisinin də xüsusi xidmətləri var. Azərbaycanın sərhədləri BMT-nin qanunları ilə dünya birliyində tanınıb və bütün qonşular Azərbaycan sərhədlərinin toxunulmazlığına əməl etməlidirlər".

**Direktor Azərbaycan sərhədçilərinin insident zamanı soyuqqanlılıq nümayiş etdirməsini dəstəklədiyini bildirib:** "Çünki sərhədçilərimiz iki dövlət arasında əlaqələrin pozulmaması üçün silahdan atəş açmayıblar. Təxribatçılar və onlara dəstək verənlər bilməlidir ki, David Qareci də, Şərqi Gürcüstan da tarixi Azərbaycan torpağıdır. Tiflis Azərbaycanın qədim şəhəridir. Bir qrup gürcü təxribatçısının yolu ilə gedilərsə, onda Azərbaycan da öz tarixi torpaqları ilə bağlı iddia qaldıra bilər. Əgər gürcü ekstremistləri ərazi iddiasındadırsa, onda öz "hünərlərini" Cavaxetiyada göstərsinlər. Ötən əsrin 30-cu illərində Stalin Şirək yaylasını - Qanıx (Alazan) çayının sağ sahilindəki torpaqlarımızı Azərbaycan xalqının razılığı olmadan Gürcüstana verib. Biz təbii ki, bu iddiaları qaldırmırıq. Çünki biz gürcü xalqı ilə dostuq. Dostluqda xəyanət olmaz!"

**"Azərbaycan və Gürcüstan xalqları arasında əsrlər boyu tarixi dostluq və qardaşlıq münasibətləri mövcud olub. Əsrlərin sınağından çıxmış qardaşlığımız son günlər baş verən təxribat səbəbindən daha bir imtahandan keçir. Bu, birmənalı şəkildə təxribatdır və bu hadisələrdə maraqlı dairələrin əli var".**

**Bu barədə Qafqaz Müsəlmanlar İdarəsinin (QMİ) Gürcüstandakı səlahiyyətli nümayəndəsi Hacı Əli Əliyevin Keşikçidağı Məbəd-Kompleksində baş verən insidentlə bağlı yaydığı bəyanatda bildirilib.** "Gürcü və Azərbaycan xalqları, dindarları arasında heç bir nifaq, milli və ya dini qarşıdurma halı yoxdur, ola da bilməz. Bunun üçün əsas yoxdur və xalqlarımız, dövlət, hökumət rəsmilərimiz arasında olan strateji münasibətlər, dini liderlərimizin müdrikliyi, onların dünyaya örnək qardaşlıq əlaqələri buna imkan vermir".

**Sənəddə qeyd olunub ki, Azərbaycan və Gürcüstanın dövlət və xalqları arasında qarşılıqlı ehtiram və etimad mühiti görünür bədxahlarımızın işinə yaramır:** "Təxribatlara əl atmaqla iki xalqın arasına nifaq toxumu səpmək, qarşıdurma yaratmaq ümidindədirlər. Xəyanətkarlığın arxasında duran qüvvələrin ən böyük məqsədi bu qarşıdurmanı təkcə milli deyil, dini müstəviyə daşımaqdır. Bu mənfur, bədxah niyyəti Qafqazda gerçəkləşdirmək cəhdləri məlum qüvvələrin zəhərli təfəkküründə hər zaman mövcud olub".

**QMİ-nin Gürcüstan nümayəndəliyi ümid edir ki, Keşikçidağı Məbəd-Kompleksi ətrafında yaradılmış süni problem aidiyyəti qurumlar tərəfindən tezliklə həllini tapacaq:** "Bu istiqamətdə işlər gedir və davam etdiriləcək öz hüquqi həllini tapacaq. Biz xalqlarımız və dövlətlərimizin dostluq və qardaşlıq münasibətlərinin bu imtahandan da üzüağ çıxaraq daha da dərinləşməsini diləyirik".

**Bəyanatda vurğulanıb ki, dini hisslərin siyasi məqsədlər üçün sui-istifadəsi yolverilməzdir və dini qarşıdurma yaratmaq cəhdi ikrahdoğurucu haldır:** "Biz Gürcüstan və Azərbaycan dindarları dövlətlərimizin, dini liderlərimizin mövqeyindən çıxış edərək, bu yolda öz səylərimizi əsirgəməyəcək, xalqlarımızı qarşı-qarşıya qoymağa çalışan qüvvələrin təxribatlarına uymayacağıq. Bədxahlarımızın, marağı olan qüvvələrin məkrli niyyətləri tarixi qardaşlıq və ənənəvi Qafqaz müdrikliyi qarşısında puç olacaq".

Qeyd edək ki, 14 iyul 2019-cu il tarixində Gürcüstandan olan bir qrup şəxs Azərbaycan Respublikası istiqamətində dövlət sərhədini pozaraq Azərbaycan ərazisində yerləşən Keşikçidağ mağaralar kompleksi yaxınlığında xidmət aparan sərhəd naryadına hücum edərək onların ünvanına nalayiq ifadələr səsləndirib. Azərbaycan XİN Keşikçidağda baş verən hadisəyə reaksiya verib. Gürcüstanın ölkəmizdəki səfiri Xarici İşlər Nazirliyinə çağırılıb və məsələ ilə bağlı müvafiq izahat istənilib. Bu vaxta qədər hələlik Bakının notasına Tiflisdən cavab gəlməyib. Təxribat törədənlərin cəzalandırılması barədə də məlumat yoxdur.

Gürcüstanın XİN yerli sakinlər və azərbaycanlı sərhədçilər arasında yaşanan insidenti təəssüfedici adlandırıb. Sonraki günlərdə məbədə giriş qadağan edilib.

Hazırda ciddi problemlər yaranmasa da, məsələnin açıq qalması narahatlıq doğurur. Bəzi təhlilçilər hesab edir ki, Gürcüstanda anadan olmuş tanınmış azərbaycanlılar Tiflisə səfər edərək Gürcüstanın ayrı-ayrı dairələri ilə görüşlər keçirib məsələnin sakit şəkildə həll olunması zərurətindən bəhs etsələr, bu, işin faydasına olar.

**Borçalıda, Qardabani rayonunun Kosalı kəndində anadan olan "Borçalı" Cəmiyyətinin sədri Zəlimxan Məmmədli "Yeni Müsavat"a açıqlamasında mövzu barədə danışarkən bunları bildirdi:** ""Borçalı" Cəmiyyəti Keşikçidağ məbədi ətrafında yaradılan gərginliyi hər hansı təxribatçı şəxslərin törədiyi qanunsuzluq kimi dəyərləndirməyi doğru hesab etmir. Proseslərin inkişaf dinamikası deməyə əsas verir ki, bu, ciddi mərkəzlərin hazırladığı planlı bir təxribatdır. Hesab edirik ki, bu təxribatların hədəfi iki xalqı üz-üzə qoymaqdan, yeni etnik-dini qarşıdurma yaratmaqdan, destruktiv mərkəzlərin bölgəyə müdaxiləsi üçün münbit şərait yaratmaqdan, Azərbaycanla Gürcüstanın strateji tərəfdaşlığını təhdid altına salmaqdan, Cənubi Qafqaz dövlətləri arasında sağlam əməkdaşlığı pozmaqdan ibarətdir. "Borçalı" Cəmiyyəti bu problemin həllində ictimaiyyətin daha az iştirakını məqbul hesab etməklə, Azərbaycan və Gürcüstan arasında rəsmi təmasların daha da intensivləşməsini, məsələnin mütləq anlamda aktiv diplomatik müstəviyə daşınmasını zəruri bilməklə, tədqiqatçı alimlərin də daxil olduğu yeni problemlərin həllinə səlahiyyətli etimadlı ortaq dövlətlərarası komissiyasının formalaşdırılmasını təklif edir".

**Z.Məmmədli əlavə etdi ki, iki xalq arasında etimad mühitini zaman-zaman sarsıtmış aşağıdakı məsələlərin həmin komissiyanın səlahiyyətində müzakirəyə salınmasını və həll yollarının aranmasını təklif edir:** "Demorkasiya və delimitasiya problemləri; Əsassız dəyişdirilmiş toponimlərin bərpası məsələsi; Gəncə qapılarının geri qaytarılması məsələsi; Ədalətsiz olaraq kəndçilərdən alınmış torpaqlara görə təzminatlar məsələsi; Soydaşlarımızın Gürcüstan ərazi bütövlüyü çərçivəsində statusu məsələsi; Azərbaycanda məskunlaşmış gürcülərlə bağlı təklif olunan məsələlər; Azərbaycan və Gürcüstan arasında uzunmüddətli strateji əməkdaşlıq prioritetlərinin müəyyənləşməsi məsələsi; Azərbaycan dilinin regional dil statusu məsələsi; Borçalı türklərinin Elat Mədəniyyəti günü - Elat bayramının bərpası; Siyasi motivlərlə girişinə yasaq qoyulmuş şəxslərin üzərindən qadağanın götürülməsi və sair".

Təşkilat rəhbəri dedi ki, "Borçalı" Cəmiyyəti eyni zamanda ən yaxın zamanda "Azərbaycan-Gürcüstan münasibətləri və mövcud problemlər" mövzusunda milli qüvvələrin zirvə toplantısının çağırılmasını, yaranmış durumun müzakirəsi, ortaq maraq və milli mənafeyimizi ehtiva edən vahid sənədin qəbul olunmasını, Azərbaycan milli qüvvələrinin "Azərbaycan və Gürcüstan milli qüvvələrinin əməkdaşlıq şurası"nın yaradılması kimi yeni təşəbbüslə çıxış etmələrini təklif edir.

**Gürcüstan Respublikasının Bolnisi rayonunun Faxralı kəndində anadan olan deputat, Azərbaycan-Gürcüstan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Əflatun Amaşov "Yeni Müsavat"a açıqlamasında dedi ki, Gürcüstan-Azərbaycan sərhədinin delimitasiya və demarkasiyası üzrə komissiya hazırda bu məsələ ilə məşğul olur:** "Bu məsələ yaradılmış komissiyada, araşdırma mərhələsindədir. İnanıram ki, ortaq məxrəcə gəlinəcək və məsələ öz həllini tapacaq".

**"Bu ilin 20 avqust tarixindən sonra iki ölkənin ekspertlərinin görüşünün keçirilməsi nəzərdə tutulur". Bunu isə XİN-in mətbuat katibi Leyla Abdullayeva "Yeni Müsavat"a açıqlamasında söylədi. Gürcüstana xüsusi bir heyətin göndərilməsi təklifinə gəldikdə, XİN təmsilçisi buna zərurət olmadığını bildirdi:** "Azərbaycan Respublikası və Gürcüstan arasında Dövlət Sərhədlərinin delimityasiyası və demarkasiyası üzrə Komissiyanın növbəti iclası keçiriləndək bu kimi tədbirlərə ehtiyac yoxdur".

❑ **Elşad PAŞASOY, "Yeni Müsavat"**



# Zubr proqramı

Zamin HACI
zaminhaci@gmail.com

"Kavaler Pomidor maraqdan özünü saxlaya bilməyib bir gözünün ucuyla güzgüyə baxdı. Məlum deyildi o güzgüdə nə görmək istəyirdi, ancaq əlbəttə, özünün od kimi qırmızı sifətini, xırdaca acıqlı gözlərini və daxıl dəliyinə bənzər yekə ağzını gördü"

*(Canni Rodari, "Çipollinonun macəraları")*

**Hindistan Aya kosmik qurğu göndəribdir. Bundan qabaq Çin göndərmişdi, deyəsən, onlarınkı bir az "kitayski" çıxdı, enə bilmədi. Amerikalılar isə Ayda vaxtilə, yalan olmasın, "Ay işığı" şadlıq sarayı açmışdılar. Nə qədər gələn-gedən olardı... İki gün qabaq Aya birinci dəfə enməklərinin 50 illiyini qeyd etdilər. Bizdə də belə yubileylər olur, ancaq bizimki adətən Aydan, göydən düşməklə bağlı olur. Sözgəlişi, tarixi faktdır, Nil Armstronq o vaxt Aya enəndə bunun qulağına ərəbcə səslər gəlibdir. Sən demə, ərəb turistlər Bakıdan qabaq ora gedibmişlər.**

Zarafat bir yana, mən düşünürəm ki, bu dünya camaatının heç qanacağı-qabiliyyəti yoxdur. Aya uçurlar, lakin biz azərbaycanlılardan icazə almırlar. Axı Ay bizim dövlət simvollarımızdan biridir. Düzdür, ayparadır, ancaq kim nə bilir o dilim Ayın harasıdır? O cümlədən həmin ayparadan müsəlman dövlətlərinin az qala hamısının bayrağında, gerbində, dövlət simvollarında mütləq vardır. Ancaq xristianlar, buddistlər, ateistlər, nə bilim, induistlər hamısı Aya uçur, heç demirlər, ay müsəlman camaatı, sabahınız xeyir olsun, ay belə sizi xoş gördük. İkili standartlara görədir. Müsəlman düşmənçiliyinin bariz nümunəsidir.

Hərçənd bir təsəllimiz var ki, biz müsəlmanlar Aya baxanda salavat çeviririk, nəticədə işlərimiz düz gətirir, kafirlər isə cəhənnəmdə odda yanacaqdır. (Hazırda Transcəhənnəm Neft-qaz Kəməri - TCNK üzrə danışıqlar gedir, müqavilə imzalanacaqdır. Müsəlman ölkələrinin hamısında, maşallah, neft vardır. Rəhmətlik Fikrət Sadığın bu temada bir şeiri yadıma düşdü, onu burda yazıram: "Harda neft var, orda bəla var. Nefti olan ölkələrin, Hamısında kərbəla var"). O cümlədən biz hər il Ramazan ayında dünya üzrə Ayı ən çox müzakirə edən ümmətik. Bütün müsəlmanlar həmin vaxt çalışır Ayı birinci görsün. Çünki hədisi-şərifdə yazıldığı kimi, oruclıqda Ayı birinci görmək hansısa kafirlərə qoşulub Ayın müqəddəs torpağında sülənməkdən üstündür.

Əlbəttə, göylə əlləşmək o demək deyildir ki, bizim yerdə problemlərimiz azalıbdır. Qətiyyən. Elə adicə pomidor krizisini götürək. Hələ də həll olunmayıbdır. Düzdür, dövlət idarəsi anons verdi ki, bir az hövsələ eləyin, Xaçmazda pomidor yetişmək üzrədir, əməkdaşlarımızı göndərmişik, orda tağları o üz bu üzə çevirib hər bir pomidorun yaxşı qızarmasına, üstünə gün düşməsinə çalışırlar. Ancaq Molla Nəsrəddinin sözü olmasın (yaxşı pulum olsa "Moll A Nəsrəddin" adlı ticarət mərkəzi açardım, girişinə də eşşək heykəli qoyardım). Müstəqilliyin 100 illiyində bizim dərdimizə bax. Pomidor. Gör nə qədər inkişaf eləmişik. Akademiyada alimlər gərək araşdırsın, bəlkə də pomidoru aylı gecələrdə yetişdirməyin faydası vardır. O cümlədən, buluda, küləyə, yağışa, söyüşə, instaqrama, işğala, senzuraya davamlı pomidor sortları hazırlanmalıdır. Qabaqkı vaxta ağlınız getməsin, indi müstəqilliyimizin düşmənləri çoxdur.

Ancaq kənd təsərrüfatı məhsullarına ehtiyac böhranını bizonların hesabına ödəmək olar. Deyir haçansa Qafqazda bizonlar sürü ilə gəzirmiş, sonra camaat bunları qırıb qurtarıb, indi Belarusda, Belovejskaya puşşa meşəsində (Allah Qarbaçovun öyünü yıxsın, biz o meşəni daha çox SSRİ-ni dağıdan toplantıya görə tanıyırıq) qalıblar. Orda bunlara zubr deyirlər. Uzun sözün qısası, həmin zubrlardan 4 dənəsini təzəlikcə gətirib İsmayıllı dağlarına buraxıblar. Eynilə yuxarıda adını çəkdiyim mollanın "filin dişisi də gəlir" əhvalatının təkrarıdır. Bəs necə, tarixi gərək unutmayasan, yoxsa təkrar olur. İdarə xəbərdarlıq eləyib, deyir İsmayıllıda meşədə-zadda zubr görsəniz çalışın 50 metrdən yaxın getməyin. Adamı rəhmətlik Ziya müəllimin vaxtındakı nəqliyyat müfəttişi taksi sürücüsünü ayaqlayan kimi ayaqlayırmış. Hələ bir dənə də bəbir və pələnglərin Lerikdə bərpası proqramı olmalıdı.

Çox yaxşı proqramlardır. Ümid edək o zubr-bizondan bir sürüsünü Bakıya, misal üçün, Məhsul stadionuna otlamağa buraxarlar. Zəhlətökən ünsürlər çoxalıb.

**Azərbaycan Ermənistan üzərində hərbi üstünlüyünü qoruyub saxlayır. Bu üstünlük işğalçı ölkədə keçən il baş tutmuş hakimiyyət dəyişikliyindən sonra da dəyişməyib. Çünki Ermənistan ətrafındakı sərt reallıqlar dəyişməz qalır. Blokada rejimində və Rusiyadan vassal asılılığında olan, üstəgəl, sanballı təbii sərvətlərdən və dünya okeanına çıxışdan məhrum cırtdan ölkə böyük iqtisadi islahatlara və zəngin büdcəyə ümid edə bilməz. Odur ki, ümid qalır yalnız Kremlin "səxavəti"nə. Rusiya isə silah-sursatı güzəştli qiymətlərə elə-belə vermir.**

# İrəvan və Moskvanın yeni məkrli Qafqaz planı

## Ermənistanın Rusiyadan, Rusiyanın isə ermənilərdən əsas gözləntisi; Bakı və Tiflisə qarşı növbəti "Qarabağ ssenarisi" - onu önləməyin bir yolu var...



"İlin sonuna və ya gələn ilin əvvəllərinədək biz Rusiyanın Su-30 SM qırıcılarının tədarükünə başlayacağına ümid edirik". "Yeni Müsavat"ın "Sputnik"ə istinadən verdiyi məlumata görə, bunu dünən jurnalistlərə açıqlamasında Ermənistanın müdafiə naziri David Tonoyan deyib.

Yada salaq ki, Ermənistan Rusiyanın ayıracağı üçüncü - 100 milyonluq silah krediti çərçivəsində 4 ədəd Su-30 SM müasir qırıcısı aldığını bəyan etsə də, rəsmi Moskva bu qırıcıların Rusiyanın Ermənistandakı hərbi bazasına göndəriləcəyini bildirib. Başqa sözlə, əslində Su -30 SM-lərin pultu da "İsgəndər M"-lər kimi Moskvanın əlində olacaq, İrəvanın yox.

Tonoyan həmçinin jurnalistlərin ölkəyə digər silahların tədarükü ilə bağlı sualını da cavablandırıb. Erməni nazir bir sıra məsələlərin detallarını açıqlaya bilməyəcəyini, amma Ermənistanı "hərbi sürprizlər gözlədiyini" də söyləyib. Məsələn, Ermənistana "Tor" zenit-raket komplekslərinin daxil olub-olmadığı barədə suala Tonoyan belə cavab verib: "Onu deyə bilərəm ki, "Tor" çox maraqlı silahdır. Bizim bu xüsusda müvafiq gözləntilərimiz var".

Məlumat üçün bildirək ki, "Tor" kompleksləri hərbi, iqtisadi və başqa obyektlərin taktiki səviyyədə havadan müdafiəsi üçün nəzərdə tutulub. Az öncə İrəvandakı telekanallardan biri Ermənistanın Rusiyadan "Tor" kompleksləri alacağını bildirmişdi.

*****

Bu arada ordusuna düz-əməlli çağırışçı tapılmayan ölkənin baş naziri Nikol Paşinyan növbəti özündənrazı bəyanat verib. Belə ki, "Yeni Müsavat"ın erməni qaynağına istinadən verdiyi məlumata görə, dünən Müdafiə Nazirliyinin inzibati kompleksində çıxış edən Paşinyan deyib: "Bizə elə silahlı qüvvələr, elə dövlət lazımdır ki, bütün potensial düşmənlərimiz başa düşsünlər ki, bizimlə döyüşmək mənasızdır. Mübarizənin nəticəsi məlumdur - düşmənin məğlubiyyəti və bizim qələbəmiz".

Əlbəttə ki, sözdə çox şey bəyan eləmək olar. Ancaq 2016-cı ilin "4 günlük" aprel müharibəsi göstərdi ki, Ermənistan Azərbaycanla silahlanma yarışında ayaqlaşa bilməz. Bu, artıq istisnadır. Təbii ki, Moskva Bakının xeyrinə olan hərbi balansın bərpası üçün İrəvana vaxtaşırı müəyyən silahlar və hərbi texnika verəcək - ilk növbədə də öz maraqları naminə. Ancaq bu silah və texnika nə qədər ucuz qiymətə və güzəştli kreditlər hesabına çatdırılsa da, bahalı döyüş sistemləri ilə bağlı İrəvanın Azərbaycanla ayaqlaşması mümkün deyil. Çünki iki ölkənin iqtisadi-maliyyə imkanları müqayisəyə gəlməz dərəcədə fərqlidir.

Deməli, Paşinyan hökuməti qeyri-real şeylərdən danışmaqdansa, konfliktin dinc həll yolu barədə düşünsə daha yaxşı olar. Üstəlik, elə bir dövrdə ki, Kreml Nikol Paşinyana etimad göstərmir. Əksər politoloqlara görə, Moskva hələ də Qərblə Rusiya arasında ikili oyun oynamağa çalışan Paşinyan hökumətinin yekun məqsədinin nə olduğunu anlamır. Bu üzdən Moskva Ermənistana satılan təbii qazın qiymətini belə, hələ ki Paşinyana təzyiq vasitəsi kimi açıq saxlamaqdadır...

*****

Bu da var ki, İrəvanın Rusiyadan gözləntisi olduğu kimi, Moskvanın da ermənilərdən gözləntisi var - həm də kifayət qədər böyük. Məsələn, məlumdur ki Rusiya gərgin münasibətlərdə olduğu, qərbyönlü Gürcüstanı daxildən zəiflətmək üçün "erməni kartı"ndan, o sırada Cavaxetiya ermənilərindən zaman-zaman yararlanmağa çalışır.

Bir çox təhlilçilərə görə, Gürcüstanla sərhəddə yerləşən "Keçikçidağ" məbədi ətrafında vaxtaşırı törədilən və iki qonşu ölkənin arasını vurmağa yönəlik təxribatlarda da məhz "erməni izi" var. Daha doğrusu, Rusiya ermənilərin əli ilə buna çalışır. Bu ilin 20 yanvarında ("Qara yanvar" günü) Cavaxetiyada erməni terrorçusu, Qarabağda dinc azərbaycanlılara qarşı cinayətlər törətmiş Mixail Avakyana büstün qoyulmasında da eyni hədəf güdülürdü. Yeri gəlmişkən, büst hələ də öz yerindədir.

Bundan əlavə, məlumdur ki, Gürcüstanın ermənilər yaşayan Samsxi-Cavaxetiya bölgəsində yerli erməni əhali arasında neçə vaxtdır "Rusiyanın Cavaxetiya diasporu" adlı separatçı təşkilat fəal iş aparır. Bugünlərdə həmin təşkilatın Rusiyada kök salmış lideri Aqasi Arabyanın Rusiyanın erməniyönlü KİV-i "Regnum"da Tiflis əleyhinə məqaləsi dərc olunub. Məqalədə gürcü dövləti əleyhinə növbəti təhdidlər yer alıb.

Aydındır ki, bu kimi şantaj yazıların arxasında ən əvvəl Moskvanın iradəsi dayanır. Rusiya çox arzulayır ki, ermənilərin əli ilə Gürcüstan üçün də bir "Qarabağ ssenarisi" oynasın, bu ölkəni bir daha parçalasın. Gürcüstanda vəziyyətin qarışması isə sözsüz ki, Azərbaycanın cari və strateji maraqlarına cavab vermir.

Odur ki, "Keşikçidağ" presedenti xüsusən də rəsmi Tiflis üçün siqnal olmalıdır. Belə ssenariləri yalnız Gürcüstan və Azərbaycan birgə, təmkinlə, sinxron siyasət hesabına zərərsizləşdirə bilər. Çünki hər iki ölkə, obrazlı desək, çoxdan "eyni qayıq"dadır...

❑ **"Yeni Müsavat"ın analitik xidməti**

YENİ MÜSAVAT
N 153 (7323) 23 iyul 2019

**Bakı iyulun 21-də yenidən Avropanın, eləcə də dünyanın diqqət mərkəzinə çevrilib. Ölkəmizin paytaxtı "Bakı 2019" XV Avropa Gənclər Yay Olimpiya Festivalına ev sahibliyi edir.**



# Bakı növbəti beynəlxalq yarışmaya ev sahibliyi edir - ölkəmiz üçün uğur

## Politoloq: "Bu festivalın Azərbaycan üçün çox böyük əhəmiyyəti var"

Festivalın "Baku Crystal Hall"da keçirilən təntənəli açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin rəhbəri İlham Əliyev, Azərbaycanın birinci xanımı Mehriban Əliyeva, eləcə də Avropa Olimpiya Komitələrinin prezidenti Yanes Kosyançiç, iştirakçı ölkələrin nümayəndə heyətlərinin rəhbərləri və digər şəxslər iştirak etdilər.

Məlumat verək ki, Avropa Gənclər Yay Olimpiya Festivalı Beynəlxalq Olimpiya Komitəsinin himayəsi altında keçirilir və 25 ildən artıq ənənəsi olan Avropa Olimpiya Komitələrinin (AOK) qürur mənbəyidir. Bu festival 14-18 yaş arası gənc idmançılar üçün ilk çoxprofilli Avropa tədbiridir. Tək illərdə, iki ildə bir dəfə keçirilən qış və yay festivalları da var.

Tədbir Olimpiya bayrağı altında keçirilir və Olimpiya ənənələri ilə zəngindir: alovlanan məşəldən başlayaraq idmançı və rəsmilərin and içməsinə qədər. Avropanın bir çox yüksələn idman ulduzları beynəlxalq arenada ilk addımlarını məhz Avropa Gənclər Yay Olimpiya Festivalı zamanı atırlar. Bütün iştirakçılar burada qazandıqları dostluq və təcrübəni özləri ilə həmişəlik evlərinə aparacaqlar, bəziləri üçün isə bu festival Olimpiya zirvəsinə bir yüksəliş olacaq. Avropa Gənclər Yay Olimpiya Festivalı Avropa gənclərini Atletlər kəndində simvolik olaraq birləşdirir. Bu festival idmançıların Olimpiya hadisələrinin ruhunu hiss etməyə və yeni qələbələrə ilhamlanmağa yol açacaq Olimpiya Oyunlarına bir qapıdır.

"Zirvələrə hazırıq" devizi altında keçirilən "Bakı 2019" XV Avropa Gənclər Yay Olimpiya Festivalının talismanları Cırtdan və Bəbirdir. Paytaxt Bakının 12 idman obyektində yeddi gün davam edəcək mötəbər turnirdə 48 ölkədən 3900 atlet idmanın on növü - idman gimnastikası, atletika, basketbol, velosiped idmanı, həndbol, cüdo, üzgüçülük, tennis, voleybol və güləş yarışlarında mübarizəyə qoşulub. İştirakçıların 52 faizi oğlan, 48 faizi isə qızdır. İdmançılar 135 dəst medal uğrunda güclərini sınayırlar. Mükafatçılar üçün ümumilikdə 930 medal hazırlanıb. Medalların 300-ü qızıl, 300-ü gümüş, 330-u isə bürüncdür.







Azərbaycan festivala 122 idmançı ilə qatılıb. Heyətdə güləşçilər və yüngül atletlər sayca üstünlük təşkil edirlər. Azərbaycan bu idman növlərinin hər biri üzrə 18 nəfərlə təmsil olunur. Bundan başqa, cüdo yarışlarında 12, bədii gimnastikada 4, velosiped idmanında 6, tennisdə 4, üzgüçülük yarışlarında 6 idmançımız mübarizəyə qoşulub. Komanda idman növlərində isə voleybol və basketbol yığmalarımızın hər birinin heyətinə 12 idmançı daxil edilib. Oğlanlardan və qızlardan ibarət həndbol komandalarımızda ümumilikdə 30 oyunçu yer alıb.

Festival günlərində idman obyektlərində 2500-dən çox könüllü fəaliyyət göstərəcək.

**"Yeni Müsavat"a danışan politoloq Mübariz Əhmədoğlu bildirib ki, bu cür tədbirlərin Azərbaycan üçün böyük əhəmiyyəti var:**

"Məhz daxili planda əhəmiyyət daha da yüksəkdir. Bu vaxta qədər Azərbaycanın beynəlxalq reytinqindən danışmışıq. Doğrudur, bu cür oyunlar Azərbaycana beynəlxalq aləmdə olan inamın göstəricidir. Bu inam sözü ümumi mənada qəbul olunmamalıdır. O adamlar ki, qlobal aləmdə gedən prosesləri izləyib, Avropanın qayğılarından məlumatlıdırlar, həmin ekspertlər yaxşı bilirlər ki, Avropanın Azərbaycanda hazırda belə yarışlar keçirməsi, hədsiz dərəcədə mühüm əhəmiyyətə malikdir. Çünki Avropanın özünün qat-qat böyük problemləri var. Avropa da çalışır ki, bu cür yarışmalar keçirərək, özünə əlavə nəfəs yeri tapsın. Avropa İttifaqının köhnə rəhbərliyi artıq istefaya hazırlaşır. Lakin düşünürəm ki, onların indiyədək gördükləri işlər içərisində Azərbaycanla əlaqəli aparılan proseslər xüsusi qeyd olunacaq. Ancaq hesab edirəm ki, Avropadan da qat-qat çox, bu sonuncu oyunların Azərbaycanın daxilinə böyük təsiri var. Çünki dünyada durğunluq var, beynəlxalq siyasətdə vəziyyət əvvəlki kimi deyil. Müşahidə edirik ki, artıq dünya liderlərinin bir-birləri ilə təması, bir-birilərinin ölkələrinə səfər etmələri xeyli dərəcədə zəifləyib. Belə halda isə Azərbaycana olan beynəlxalq maraq 2-3 qat daha böyük əhəmiyyət kəsb edir. Bizdə də kimsə iddia edə bilər ki, Azərbaycanın beynəlxalq aləmə, yaxud da beynəlxalq aləmin Azərbaycana olan marağı itib. Bu anlamda daxili parametr kimi hazırda başlayan oyunu çox mühüm dəyərləndirirəm. Ölkə rəhbərliyinin əli beynəlxalq proseslərin üzərindədir, beynəlxalq aləmlə ciddi əlaqələrimiz var. O cümlədən də beynəlxalq aləmin də Azərbaycana maraqları böyükdür".

Əli RAİS
"Yeni Müsavat"

# Saakaşvili BMT-nin baş katibi ola bilər...



Hüseynbala SƏLİMOV

**Ötən həftənin sonunda demək olar ki, eyni vaxtda eks-prezident M.Saakaşvili haqqında iki xəbər oxuduq. Birincisində deyilirdi ki, bəs, Saakaşvili prezident V.Zelenskiyə mane olmamaq və onun partiyasının şanslarını artırmaq üçün partiyasının seçkidə iştirakını dayandırıb.**

Əlbəttə ki, bu çox mübahisəli bir məqam idi, çünki bəzi politoloqlar hesab edirdi ki, o, parlament seçkilərində iştirak etməklə Ukrayna prezidentinə daha çox kömək edə bilərdi, nəinki seçkiləri kənardan seyr etməklə.

Elə politoloqlar da tapıldı ki, onlar bu xəbərdə Saakaşvilinin V.Zelenski ilə sövdələşməsinin əlamətlərini tutdular - guya V.Zelenskinin gələcək komandasında Saakaşvilinin də adı hallanır...

Prinsipcə, belə mülahizələr xeyli ehtimallı görünə də bilərdi, əgər bir başqa məqam olmasaydı. Digər bir xəbərdən belə məlum oldu ki, Moldovanın yeni baş naziri Saakaşvililə əməkdaşlıq etmək, hüquq-mühafizə orqanları kimi çox mürəkkəb sahənin islahatını ona tapşırmaq qərarına gəlib.

Bizim əlbəttə bu son xəbərin mahiyyətinə varmaq, yeni zəmində Saakaşvilinin şanslarını qiymətləndirmək fikrimiz yoxdur. Məlum olanı budur ki, Gürcüstanın eks-prezidenti təklifə çox diqqətlə yanaşıb, hətta deyilənə görə, ilkin razılığını da verib. Amma həmin xəbərdən o da bəlli olurdu ki, Moldovanın prezidenti birmənalı şəkildə bəyan edib ki, onun ölkəsində yüksək vəzifələrə ancaq moldovanlar təyin oluna bilər.

Beləliklə, Saakaşvilinin personası ətrafında yeni siyasi qalmaqalın işarələri görünür - bu dəfə artıq Moldovada.

Düşünürük ki, Saakaşviliyə də elə bu lazımdır, ona görə ki, moldovanların təklifi istər-istəməz elə Ukraynada da ona marağı artıracaq və beləliklə, əgər bir neçə ildən sonra, daha yetkin yaşlarında Saakaşvili durub BMT-nin baş katibi olsa belə, biz buna təəccüblənmərik, hərçənd, BMT-də onun Rusiya kimi bir rəqibi var.

Hesab olunurdu ki, Gürcüstan-Rusiya müharibəsindən sonra Qərbin Saakaşviliyə marağı tamam itibdir, çünki bu adam aşkar şəkildə Rusiya ilə Qərb arasında toqquşma yaratmağa çalışmışdı və hətta Qərbin siyasi dairələri ondan ehtiyatlanmağa başlamışdı. Amma belə demək mümkün görünürsə, Saakaşvili onlara anlatdı ki, siz hələ məni xatırlayacaqsınız...

Birincisi, "Gürcü arzusu" eks-prezidentin tərəfdarlarını tamam darmadağın edə bilmədi - onlar bu gün də Gürcüstanın əsas müxalif qüvvələri olaraq qalırlar.

İkincisi, tez bir zamanda Saakaşvilinin həyatında Ukrayna siyasi epopeyası başladı: bir vaxt Ukraynada adi tələbə olan M.Saakaşvili əvvəlcə Odessanın qubernatoru oldu, sonra isə o vaxtkı Ukrayna prezidentinin əsas siyasi opponentlərindən birinə çevrildi, çünki çox təəssüf ki, P.Poroşenko özünün oliqarx keçmişə və vərdişilə vidalaşa bilmədi.

Nəticədə M.Saakaşvili demək olar ki, Ukraynadan qovuldu - o Ukraynadan ki, onu nəvazişlə ikinci vətəni adlandırırdı. Hamı düşündü ki, artıq hər şey bitibdi, Saakaşvili artıq "siyasi meyit"dir, amma zaman göstərdi ki, onun əleyhdarları vaxtından əvvəl toy-bayram edirlər - gürcü siyasətçisi hələ son sözünü deməyibdir və o, hələ qayıdacaqdır və həqiqətən də qayıtdı.

Zaman göstərdi ki, onun Ukrayna prezidenti ilə qarşıdurmasının səbəbini heç də Saakaşvilinin ağır və iddialı xarakterində aramaq lazım deyil. Ukraynalılar Poroşenkonu ikinci müddətə seçmədi və səslərini daha gənc və bir az da qeyri-ənənəvi siyasi fiqur olan V.Zelenskiyə verdilər.

Tez bir zamanda məlum oldu ki, M.Saakaşvilinin yenidən Ukraynaya dönməsi üçün heç bir maneə yoxdur. Hiss olunurdu ki, Ukraynanın yeni prezidenti ona xoş münasibət bəsləyir və yeni hakimiyyət Saakaşvili ilə bağlı hətta bəzi formal məqamlara göz yumdu: bütün problemlər tez zamanda həll olundu, vətəndaşlığı qaytarıldı, partiyası qeydiyyata alındı.

İndi isə Moldovadan təklif gəlib. Şəxsən bizdə belə təəssürat yaranıb ki, Gürcüstanda, Ukraynada və Moldovada nəinki oxşar, hətta sinxron proseslər gedir, hansısa "gizli əl" bu ölkələrdə qayda yaratmaq istəyir ki, onları yeni inteqrasiya mərhələsi üçün hazırlasın. ABŞ-ın yaxın planları haqqında artıq yazmışıq. Diqqətəlayiq haldır ki, siyasi dairələrdə bu yeni plana "kiçik Marşall planı" da deyirlər.

Aydın məsələdir ki, belə mürəkkəb vəziyyətdə, nə vaxt ki, üç GUAM ölkəsində anti-Rusiya vektorunu ciddi şəkildə gücləndirməyə ehtiyac yaranıbdır, Rusiyaya qarşı hələ də tərəddüd edən və tam müəyyənləşməmiş Ukrayna, Gürcüstan və Moldova hökumətlərinə və siyasətçilərinə təsir etmək üçün hətta M.Saakaşvili fenomeni də effektiv təzyiq vasitəsi ola bilər. Odur ki, maraqlı proseslər hələ qabaqdadı - necə deyərlər, darıxmayacağıq...

YENİ MÜSAVAT
N 153 (7323) 23 iyul 2019

**Taliban Pakistanın şimal-qərb bölgəsində iki intiharçı hücumu həyata keçirib. Hücumlar zamanı 10 nəfər həlak olub, 25 adam yaralanıb. Polis hücumlardan birinin Dera İsmayıl Xan keçid məntəqəsində, ikincinin isə xəstəxanada həyata keçirildiyini bildirib. Xəstəxanaya girən şəxs niqabda (burka) olub. "Amerikanın Səsi"nə elektron poçt vasitəsilə göndərilən məktubda hücumun məsuliyyətini Talibanın üzərinə götürdüyü bildirilib.**

# Terrorun dini varmı...

## Tarixdən bu günə terror - ona qarşı necə mübarizə aparmaq olar?



Sonuncu dəfə ən böyük kamikadze hücumu bu ilin aprelində Şri-Lankada baş verib. Aprelin 21-də Şri-Lankada kilsə və hotellərdə törədilən silsilə partlayışlar nəticəsində 290 nəfər ölüb, 500 nəfərin isə yaralandığı bildirilirdi.

Terror, xüsusən də din adına terror son 10 ildə bəşəriyyətin ən böyük probleminə çevrilib. Əgər 2000-ci ildə dünyada terrorun vurduğu zərər 4,93 milyard dollar olubsa, 2014-cü ildə bu məbləğ 104 milyard dollara yüksəlib. Nisbətən zəifdləyi 2016-cı ildə isə 84 milyard dollar olub. Terrorun ən böyük zərbə vurduğu bölgə isə müsəlman ölkələri idi. Ümumilikdə 2002-ci ildən sonra dünyada baş verən terror aktlarının 84 faizi, o cümlədən ölümlərin 94 faizi məhz Yaxın Şərq və Şimali Afrika coğrafiyasında baş verib.

Terror aktlarının sayı xüsusən də "ərəb baharı" sonrası artıb. 2013-cü ildə dünyada 10 min terror aktı baş verib və 18 mindən çox insan ölüb. 2014-cü ildə isə 32700 nəfər terror qurbanı olub. 2017-ci ildə isə nisbətən azalan terror aktları zamanı 18 mindən çox insan ölüb.

Böyük Fransa İnqilabından sonra siyasi ədəbiyyata daxil olmuş terrorun kökləri isə çox dərinlərə gedir. Hazırda adı daha çox İslam dini ilə anılan terror aktlarının tarixi İslamdan çox-çox qədimlər gedib çıxır.

Tarixdə ilk terror nümunəsi hazırkı Fələstin ərazisində mövcud olmuş yəhudi Sakarilər qrupu tərəfindən həyata keçirilib. Eramızdan əvvəl 66-73-cü illərdə baş verən bu hadisələr dini qruplar arasında hakimiyyət davası zamanı həyata keçirilib.

11-13-cü əsrlərdə İranda yaşamış nizari ismaililərin lideri Həsən Sabbahın rəhbərlik etdiyi Ələmut dövləti bu gün terror olaraq vəsf edilən sui-qəsdlər həyata keçirib. Bundan başqa, Hindistanda "Thug" hərəkətləri, ABŞ-da "Ku-Klux Klan", sonrakı illərdə Makedoniyada, Serbiyada, eləcə də erməni və İrlanda ekstremistlərinin hərəkətləri terror hesab olunub. Asala erməni terror təşkilatının 1970-ci illərdə Türkiyənin Avropa ölkələrindəki diplomatlarına qarşı silsiləvi sui-qəsdləri klassik terror nümunəsi hesab olunur.

1970-80-ci illərdə Fələstində və həmçinin Livanda fəaliyyət göstərən silahlı müqavimət qruplarının İsrail ordusuna qarşı həyata keçirdiyi partlayışlar, daha sonra Əfqanıstanda, ardınca İraq, Suriya, Afrikanın fərqli ölkələrində terror təşkilatları meydana çıxıb. Taliban, Əl-Qaidə, İŞİD, PKK, PYD, Afrikada "Boko Haram" kimi terror təşkilatı kimi tanınan təşkilatlar var.

Bu gün çox geniş yayılmış "intihar bombaçısı", yaxud da "kamikadze" terroru anlayışı nisbətən yenidir. İlk dəfə 1980-ci illərin əvvəllərində livanlı və fələstinli döyüşçülər İsrail ordusuna hücum edərək özlərini partladıb. Daha sonra bu "təcrübə" digər ölkələrə də yayılıb. İkinci Dünya müharibəsi zamanı Yaponiya təyyarəçilərinin bomba yüklü təyyarələri ilə ABŞ qüvvələrinə qarşı həyata keçirdiyi intihar aksiyaları 13-cü əsrdə monqol Kubilay xanının Yaponiyaya hücumu zamanı baş verən və Yaponiyanı xilas edən küləyin şərəfinə Kamikadze, yəni "xilaskar külək" adı verilib. Ancaq 1980-ci illərdə Fələstin və İsrail münaqişəsindən sonra özünü partlatma fərqli məcraya yönəlib. Ardınca Əfqanıstan, daha sonra isə İraqın işğalı zamanı intiharçı terrorizm geniş yayılıb. ABŞ-ın İraqa hücum etdiyi 2003-cü ilin 22 martından 2005-ci il dekabrın 26-dək İraqda 194 terror aktı törədilib və bunların əksəriyyəti kamikadze terroru olub, yaxud da elə tanınıb. Bu hadisələr zamanı ümumilikdə 2977 insan ölüb.

2001-ci il Nyu-York terror hücumları, Avropada - London və Madriddə kamikadze terroru nəticəsində onlarla insan dünyasını dəyişib. Məsələn, ikinci çeçen müharibəsi zamanı 2000-2005-ci illər arasında çeçenlər tərəfindən 28 intihar terroru baş verib ki, bunun nəticəsində 939 nəfər ölüb, 3 minə yaxın insan isə yaralanıb.

Göründüyü kimi, terror tarixi çox qədimlərə gedən və fərqli dinlər, inanclar arasında yayılmış mübarizə vasitəsidir. Ancaq intiharçı-terroru yalnız inanclı insanlar həyata keçirməyib. PKK, PYD, eləcə də "soyuq müharibə" dönəminin bir sıra marksist terror təşkilatları Allaha və hər hansı dinə inanmayıb. Bu isə onu deməyə əsas verir ki, dinə inanan və ya inanmayan insanları motivasiya etmək, onları özünü fəda etməyə inandırmaqla terrora, özünü qurban verməyə vadar etmə ənənəsi olub. İnsanlar hansısa şəraitdə onlar üçün ən əziz olan həyatlarından imtina edir və bu zaman günahlı və günahsız insanların ölümünə qol qoyur. Son 10 ilin hadisələri göstərdi ki, terror heç bir halda qarşısı alınması mümkün olmayan bir bəladır. Yalnız dünyanın mütərəqqi insanları və dövlətləri birgə çalışmaqla bu bəlanın qarşısını ala bilər. Çünki bu gün təcrübə də göstərir ki, bütün terror qruplarının arxasında maraqlı güclər, adətən dövlətlər dayanır. Bu isə onlara qarşı köklü mübarizəni daha da çətinləşdirir.

❑ **Kənan RÖVŞƏNOĞLU,**

# Almaniyadakı mühacir qadının intiharının səbəbi

## Son 10 gündə adıçəkilən ölkədə miqrantlar arasında üç özünəqəsd cəhdi baş verib



**Almaniyanın Deggendorf şəhərində Azərbaycan vətəndaşlarının yerləşdiyi qaçqın düşərgəsində intihar hadisəsi baş verib. Bu barədə AzEuroNews.com-a Almaniyada fəaliyyət göstərən "Leqat" inteqrasiya mərkəzinin rəhbəri, hüquqşünas Əlövsət Əliyev məlumat verib. Onun sözlərinə görə, qaçqın kampında yaşayan Məmmədova Humay iki gün əvvəl dərman içməklə özünə qəsd edib. 15 dəqiqə ərzində xəstəxanaya çatdırılsa da, xəstəxanada dünyasını dəyişib. 40 yaşlı qadının intiharına ilkin səbəb kimi "Dublin" qərarının obyektiv araşdırılmaması olub.**

Məlumata görə, Humay Məmmədova 1979-cu ildə Qərbi Azərbaycanda anadan olub. Müəyyən müddət Azərbaycanda hərbçi kimi çalışıb və sağlamlığında problemləri olub. Lakin həkimlər onun müalicəsinə diqqət ayırmayıb.

H. Məmmədova xəstəxanaya aparılan zaman 9 yaşlı qızının Almaniyada yaşayan bacısına verilməsini xahiş edib. Ə.Əliyevin sözlərinə görə, bu gün başqa bir azərbaycanlı xanım da Berlində özünə qəsd edib. O, hazırda xəstəxanadadır.

Hüquqşünasın sözlərinə görə, bu, son 10 gündə Almaniyada üçüncü intihara cəhd hadisəsidir.

"Yeni Müsavat"ın əldə etdiyi məlumata görə, Deggendorf düşərgəsi ümumən ağır şəraitlidir və orada azərbaycanlı ailələr çoxluq təşkil edir. Haqqında danışılan qadın isə 9 yaşlı qızı ilə bu düşərgədə qalırdı. Ortada Dublin prosesi ilə bağlıləngimələr olub. Belə ki, viza alıb Avropa Birliyi ölkələrindən hansısa birinə daxil olursansa, orada qaçqın statusu üçün müraciət edirsənsə, səni həmin ölkəyə qaytarırlar. Macarıstan vizası ilə gəlmisənsə, Almaniyadan sığınacaq istəyirsən və bu zaman səni Macarıstana qaytarırlar. Çünki sən Macarıstandan sığınacaq istəməlisən. İlk viza aldığın ölkə odur.

Məlumatlarda həmçinin qeyd olunur ki, H.Məmmədova adlı qadın da Dublin prosesinə düşüb və proses düzgün aparılmayıb. Almaniyanın müvafiq idarəsi Almaniya Miqrasiya və Qaçqınlarla iş üzrə Federal İdarədir. Qadın hesab edib ki, sözügedən idarənin Deggendorf şəhərindəki şöbəsində iş düzgün araşdırılmayıb və buna etiraz əlaməti olaraq dərman qəbul edərək, həyatına qəsd edib. Xəstəxana ilə düşərgə arasındakı məsafə böyük olsa da, onu 15 dəqiqə ərzində xəstəxanaya çatdırıblar. Bir-iki gün boyunca xəstəxanada qalan qadının həyatını həkimlər xilas edə bilməyiblər.

Qadının özündən sonra 9 yaşlı qızı qalıb və onu Almaniyada yaşayan bacısına əmanət edib. Xəstəxanaya aparılanda "qızımı bacıma verin" deyib. Əldə etdiyimiz bir başqa məlumatda isə bildirilir ki, Günay adlı bir başqa azərbaycanlı xanım da eyni səbəblərlə dərman içərək intihar edib və hazırda xəstəxanadadır.

❑ **SEVİNC,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 153 (7323) 23 iyul 2019

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



# İrəvanın Qarabağ və Naxçıvan xofu - düşmənin ikili təlaşı

## Rusiya-Türkiyə strateji tərəfdaşlığı nə vaxtsa Qarabağ üçün ortaq “Yol xəritəsi”nin işlənməsinə gətirə bilər; vaxt udmağa çalışan Paşinyan üçün gerisayım başlayır...

**Dağlıq Qarabağ məsələsində Ermənistanın yeni rəhbərliyi real və ciddi dönüşə gətirəcək addımlar atmağa hələ də hazır görünmür. Müşahidələr göstərir ki, baş nazir Nikol Paşinyan status-kvonu uzatmaqda və bundan istifadə edərək, əsas siyasi rəqiblərini zərərsizləşdirməkdə daha çox maraqlıdır. Bura sözsüz ki, işğal altındakı Dağlıq Qarabağda öz adamını “hakimiyyət”ə gətirmək hədəfi də daxildir.**




Təbii ki, Paşinyanın ən böyük qayğısı işğalçı ölkədə sosial-iqtisadi durumu yaxşılaşdırmaqdır. Çünki zaman gedir və bu yöndə hələ ki gözə gələsi uğur qeydə alınmayıb. “Məxməri inqilab”dan 1 ildən çox vaxt keçsə də, Nikol Paşinyanın ermənilərə yaxşı güzəran, iş yerləri haqda verdiyi vədlər elə vəd olaraq qalır. Bu da yavaş-yavaş onun reytinqində özünü göstərməkdədir - əlbəttə ki, mənfi planda. Bu yaxınlarda ABŞ-ın Respublikaçılar İnstitutunun keçirdiyi rəy sorğusu inqilabdan sonra ilk dəfə Paşinyanın nüfuzunun prezident Armen Sərkisyanın reytinqindən geri qaldığını üzə çıxarmışdı - müvafiq olaraq 56 və 61%.

Bu əslində baş nazirə ciddi siqnal olmalı idi ki, əgər o, və komandası əhalinin həyat şəraitinin yaxşılaşmasına yönəlik real işlər görməsə, tezliklə reytinqi daha da aşağı düşə, ona olan inam-etimad geri dönməz şəkildə sarsıla bilər. İcevanda - Paşinyanın doğma yurdunda ötən həftə baş verən etirazlar, polislə toqquşma ona bu xüsusda ilk xəbərdarlıq sayıla bilər.

*****

Şübhə yox ki, Paşinyan narazı cəmiyyətdə özünə qarşı getdikcə artmaqda olan belə neqativ meylləri izləməmiş deyil. Di gəl, ondan çörək və iş yerləri gözləyən xalqına o, hələ də populist vədlər verməkdədir. Məsələn, “Yeni Müsavat”ın məlumatına görə, bugünlərdə Gümrüdə biznes-foruma qatılan baş nazir yenə “köhnə hava”nı çalıb. Paşinyan deyib: “Ermənistan sənaye ölkəsi olmalı, özünün keçmiş şöhrətini qaytarmalıdır. Yaxın zamanlarda biz sənayenin bütün sahələrinə diqqət yönəldəcəyik”.

Məsələ də elə bundadır ki, Paşinyan buna necə nail olacaq? Əgər o, ötən 1 il 2 ayda Ermənistanı iqtisadi bataqlıqdan çıxarmaq yönündə heç bir uğura nail ola bilməyibsə, ölkəyə böyük xarici sərmayə cəlb edə bilməyibsə, Ermənistan ağır blokada rejimində qalmaqda davam edirsə, ölkədən kütləvi köç səngiməyibsə, hansı sənaye ölkəsi olmaqdan söhbət gedir?

Bunlar əlbəttə ki, illüziyadır və çox tezliklə sərt reallıqla Paşinyanın özü də barışmalı olacaq. Başa düşəcək ki, işğalçı ölkənin problemlərinin açarı məhz Qarabağ probleminin həllidir. Yaxud bu problemin həllində elə bir dönüşə nail olmaqdır ki, həmin dönüş Azərbaycan və Türkiyə ilə sərhədlərin və kommunikasiyaların geri dönməz şəkildə açılmasına gətirsin, iki qonşu ölkə ilə əlaqələrin bərpasını təmin eləsin, bununla da Rusiyadan vassal asılılığını aradan qaldırsın.

Ermənistan və onun əhalisinin tək nicat yolu budur. Özü də bu yolu Paşinyana iki ildir Avropa və ABŞ yetkililəri də tövsiyə edir. Əfsus ki, Paşinyan və komandası, iqtidara yaxın media erməni xalqını tədricən buna hazırlamaq əvəzinə, Azərbaycan və Türkiyədən düşmən obrazı yaratmaqda davam edirlər. Qəribədir, bir yandan, Paşinyan və komandası guya Rusiya asılılığından qurtulmaq istəyir, digər yandan isə Kremlin işğalçı ölkədə, regionda daha da möhkəmlənməsinə xidmət edən siyasəti tərcih edirlər. Başqa sözlə, Paşinyan, nəhayət, “atı arabanın qabağına qoşub” ölkəsini normal inkişaf yoluna çıxarmaq əvəzinə, özü-özünü inkar edən siyasi kursa davam edir.

*****

Keçən həftə erməni KİV-də “Naxçıvan təhlükəsi” ilə bağlı yaradılan hay-küy buna bariz sübut sayıla bilər. Sözsüz ki, Azərbaycan qardaş Türkiyə ilə Naxçıvanın təhlükəsizliyinə daim mühüm önəm verir və verəcək. Ən azı ona görə ki, Qarabağ müharibəsi hələ bitməyib və əməliyyatların bərpası zamanı anklav Naxçıvan sarıdan əmin-arxayınlıq Bakı üçün məxsusi önəm daşıyacaq. Bölgədəki hərbi quruculuq isə Türkiyə ilə birgə artıq elə bir səviyyəyə çatdırılıb ki, Ermənistan çətin ki, Naxçıvan istiqamətində hansısa ciddi təxribata cürət eləsin.

Bununla belə, təxribat cəhdləri davam edir. Bir məqsəd də heç sübhəsiz, Rusiyanın diqqətini bölgəyə cəlb eləmək (Ermənistan-Türkiyə sərhədlərini rus hərbçiləri qoruyur) və Ankara ilə Moskva arasında son illər güclənməkdə olan əməkdaşlığa zərbə vurmaqdır. Çünki İrəvanda təlaş keçirirlər ki, Rusiya-Türkiyə strateji tərəfdaşlığı nə vaxtsa Dağlıq Qarabağ konfliktinin həlli üçün hansısa ortaq “Yol xəritəsi”nin işlənib hazırlanmasına gətirə bilər.

Məsələn, ötən həftə - iyulun 16-da Ermənistan ölkəmizə qarşı növbəti uydurma ittihamlarla çıxış elədi: guya Naxçıvan istiqamətindən Ermənistan ərazisini atəşə tutulub və nəticədə yanğın baş verib. Bir gün sonra isə yeni ittihamlar səsləndi. İddialara görə, iyulun 17-nə keçən gecə Azərbaycan Silahlı Qüvvələri Naxçıvan ərazisindən Ermənistanın Vayodtszor vilayətinin Ellin kəndini atəşə tutub. Bu fonda Ermənistan Xristian-Demokrat Partiyasının rəhbəri Levon Şirinyan daha da uzağa gedərək, “situasiyaya adekvat olub bütöv bir Azərbaycan kəndi məhv eləməyə” çağırış elədi.

Bir sıra təhlilçilər bu təxribatçı çağırışı Şirinyanın şəxsi mövqeyi hesab eləməklə yanaşı, açıqlamanın Paşinyan komandasının “ruporu” sayılan KİV-lərdən birində peyda olmasına diqqət yönəltdilər. Təhlilçilərə görə, ola bilsin, bununla hakimiyyət həm də uğursuz daxili siyasətdən diqqəti yayındırmaq məramı güdür. Yəni Paşinyan ermənilərin “əbədi ağrısı” olan Naxçıvan mövzusunu gündəmə gətirməklə əlavə vaxt udmaq niyyətinə düşə bilər.

Ancaq nə vaxtadək? Enində sonunda Paşinyan olmasa da, bir başqa erməni rəhbəri qurtuluş yolunun Azərbaycan və Türkiyə ilə konfrontasiyada, Rusiya ilə “əbədi ittifaq”da deyil, əksinə, qapı qonşularla dil tapmaqda olduğunu anlayacaq. Ümid edək ki, ona kimi problem dinc yolla həlini tapacaq və Azərbaycan öz qanuni ərazilərini işğaldan azad eləmək üçün hərbi yola əl atmaq zorunda qalmayacaq. Paşinyan və komandası üçün gerisayım artıq başlayıb..



## “Makron bizə Qarabağ vədi verib” - erməni diasporu nədən narahatdır?

**“Fransa Azərbaycana silah satan yeganə həmsədr ölkə deyil, bunu Rusiya da edir. Bununla belə, Rusiya Ermənistana da silah verir. Fransanın Azərbaycana silah satması qəbuledilməzdir. Bu məsələ ətrafında bizim Fransa hökuməti ilə konfliktimiz var”.**

Bunu Tert.am saytına açıqlamasında Fransanın Erməni Təşkilatları Koordinasiya Şurasının həmsədri, “Nouvelles d’Armenie” qəzetinin baş redaktoru Ara Toranyan deyib (Axar.az). Onun sözlərinə görə, Fransa prezidenti Emmanuel Makron erməni diasporuna Azərbaycana Qarabağda istifadə edəcəyi silah satmayacağı vədini verib.

“Hazırda əsas məsələ bu vədin icrasıdır. Biz bütün informasiya mənbələrimizdən prosesi izləmək üçün istifadə edirik. Makronun vədinin həyata keçməsi üçün işləməliyik”, - deyə o, narahatlıqla bildirib.

Azərbaycan Respublikasının Prezidenti yanında KİV-in İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında nəşr olunur. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 153 (7323) 23 iyul 2019

# Zelenskinin partiyası parlament seçkilərində qalib gəldi

## Politoloq: "Bu seçkilər prezidentin sərbəst qərarlar qəbul etməsi üçün qarşısındakı bütün əngəlləri qaldırdı"

**Ukrayna prezidenti Vladimir Zelenskini dəstəkləyən Xalq Xidmətçisi Partiyası iyulun 21-də keçirilmiş parlament seçkisində qalib gəlib. Seçkinin hələ rəsmiləşməmiş ilkin nəticələrinə görə 450 yerlik parlamentin 225 deputatının seçildiyi proporsional sistemdə Xalq Xidmətçisi Partiyası 42,5% səslə öndə gedir.**

Ali Radaya düşmək üçün gərəkli 5 faizlik həddi daha dörd partiya dəf edib. Mərkəzi Seçki Komissiyasının ilkin hesabatına əsasən, deputat Yuri Boykonun Müxalif Platforma Partiyası 12,9%, sabiq prezident Pyotr Poroşenkonun Avropa Həmrəyliyi Partiyası 8,5%, deputat Yuliya Timoşenkonun Batkivşina Partiyası 8,01%, musiqiçi Svyatoslav Vakarçukun Səs Partiyası 6,3% səs toplayıb.

Majoritar sistem üzrə səsvermənin nəticələrinə gəlincə, Xalq Xidmətçisi Partiyası azı 121 dairədə liderlik edir.

İlkin hesablamalara görə, prezident partiyası üst-üstə 255 mandat ala bilər. Ukrayna Konstitusiyasına əsasən, hökuməti parlamentdə azı 226 mandatı olan siyasi qüvvə qurur.

Vladimir Zelenski 1978-ci ildə doğulub. Siyasətə gələnədək şoumen kimi tanınıb. Prezident seçkisinə Xalq Xidmətçisi Partiyasının namizədi kimi qatılan Vladimir Zelenski aprelin 21-də keçirilmiş ikinci turda 2014-cü ildən dövlət başçısı olan Pyotr Poroşenkonu udub, mayın 20-də səlahiyyətlərinin icrasına başlayıb.

Bəs Ukraynada keçirilən parlament seçkilərinin nəticələri bu ölkədə proseslərə necə təsir edəcək və ümumiyyətlə, postsovet respublikalarına da təsiri olacaqmı?



**Politoloq Elşən Mustafayev "Yeni Müsavat"a bildirdi ki, Ukraynadakı parlament seçkilərinin ilkin nəticələri göstərir ki, ölkə yeni dövrə qədəm qoyma ərəfəsindədir. Bu dövr ərzində Ukraynadakı müxtəlif sahələrdə olan problemlərin həll olunub-olunmayacağını indidən dəqiq söyləmək mümkün olmasa da, əminliklə demək mümkündür ki, əvvəlki siyasi hakimiyyətdən tam fərqli bir siyasi komanda formalaşmaq üzrədir:** "Öncədən də gözlənildiyi kimi, Zelenskinin Xalqın Xidmətçisi Partiyası seçkilərdə böyük fərqlə liderdir. Nəticədən asılı olaraq parlamentdə təkbaşına mütləq çoxluğu əldə etmək şansları var. Ən pis halda isə buna bir neçə səsi çatmayacaq ki, parlamentə baryeri keçən özünə yaxın hesab etdiyi yeni partiya olan "Səs"lə koalisiyaya girməsi ehtimalı böyükdür. Bu seçkilər prezident Zelenskiyə rahat və sərbəst qərarlar qəbul etmək üçün qarşısındakı bütün əngəlləri qaldırdı. Maraqlı tərəfi odur ki, indiyə qədər Radada demək olar ki, bütün seçkilər zamanı təmsil olunmuş millətçi partiyaların heç biri parlamentə daxil ola bilməyiblər. Hətta Poroşenkonun partiyası belə 8 faizdən bir az artıq səs yığıb. Bununla da Ukrayna xalqı yeni siyasətə, yeni insanlara səs verib".

**Politoloq hesab edir ki, bu nəticələrdən sonra yeni komanda ölkədə olan qütbləşməni maksimum azaltmağa çalışmaqla insanlar arasında ümumi bir anlayışa gətirəcək siyasətin formalaşmasına çalışacaq. Eyni zamanda iqtisadi sahədə aparacağı islahatlar siyasətini tam öz inhisarına almaqla kənardan ora hər zaman müdaxilə etmiş oliqarxların əksəriyyətini neytrallaşdıracaq:** "Bütün bunlara rəğmən, bəzilərinin ümid etdiyi kimi, Rusiya ilə yaxınlaşma, Aİ-dən uzaqlaşmaqdan isə söz ola bilməz. Rusiyanın Ukrayna ilə bağlı indiyədək yaratdığı problemlər bu yaxınlaşmanın olmasını mümkünsüz edir. Bunları göz önünə almayan siyasətçi ilk gündən məğlubiyyətə məhkumdur. Amma insanların Zelenskidən gözləntiləri böyükdür. Artıq göründüyü kimi, xalq parlamentə nəzarəti də Zelenskiyə verdi. Məhz bundan sonra ondan istədiklərini tələb etməyə başlayacaqlar".

**E.Mustafayev qeyd etdi ki, Ukraynadakı bu seçkilərin, xüsusilə siyasi arenada tanınmayan birinin prezident olması, sonradan parlamentdə də çoxluq qazanması postsovet məkanında olan siyasi proseslərə də təsirsiz ötüşməyəcək. Xüsusilə Rusiyada insanlar artıq bu presedentdən ruhlanaraq dəyişiklik çağırışlarını daha da aktivləşdiriblər:** "Artıq xeyli vaxtdır ki, Rusiya internet məkanında bu istiqamətdə müzakirələr, çağırışlar artmaqdadır. Eyni zamanda digər qonşu ölkələrə, o cümlədən Azərbaycandakı siyasi proseslərə müsbət mənada təkan verən hadisə kimi də qiymətləndirmək olar.

Digər tərəfdən, Zelenskinin yaxın 6 ayda ölkədə müsbət dəyişikliklərinin izi görünməyəcəksə, ona verilən etimadın da aşağı düşəcəyi və hətta gələcəkdə tamamilə yox olacağı ehtimalları da var. Bu proses də qonşu dövlətlərə təsir edəcək, amma bu dəfə neqativ. Ona görə də Zelenski verdiyi vədlərin hamısını olmasa da əksəriyyətini həyata keçirməyə məcburdur. İlk növbədə korrupsiyanın, rüşvətin aradan qaldırılmasında atacağı addımlar və müharibə ilə bağlı yürüdəcəyi siyasət çox şeyi həll edəcək".

Politoloq Elxan Şahinoğlu isə bildirdi ki, Ukraynada parlamentdə yer qazanan 5 partiyadan 4-ü ölkənin NATO və Avropa İttifaqına üzvlüyünün tərəfdarıdır. Bu nəticədən qəzəblənən Kreml Ukraynaya qarşı təzyiqlərini artıracaq.

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

# Rusiya Suriyadan çıxmayacaq

## Putin Bəşər Əsədə növbəti dəfə dəstəyini ifadə edib





**Bazar günü Rusiya və Suriya ordusunun İdlibdə birgə həyata keçirdiyi hava zərbələri nəticəsində 18 nəfər ölüb. Bu barədə Frans Press Agentliyi Suriya İnsan Haqları Müşahidə Evinə istinadən məlumat yayıb.**

Qeyd edək ki, ötən ilin sentyabrında Rusiya və Türkiyə prezidentləri arasında əldə olunmuş razılaşmaya əsasən İdlibdə silahsızlaşdırılmış bölgə yaradılıb. Ancaq bu ilin aprelindən etibarən hökumət qüvvələri İdlibdə silahlıların mövqelərini atəşə tutub. Agentliyin məlumatına əsasən, bu dövrdə İdlibdə 630 mülki insan bombardmanlar zamanı ölüb, on minlərlə insan isə evlərini tərk edib.

Suriya və Rusiya tərəfi isə İdlibdə möhkəmlənən "Əl-Qaidə" və digər silahlı terror qruplarını gərginliyi artırmaqda, dinc əhali yaşayan bölgələri atəşə tutmaqda ittiham edir. Sonuncu hadisədən sonra Rusiya tərəfi bildirib ki, İdlibdə terrorçuların daha çox qalmasına dözmək fikrində deyillər.

Suriyanın şimalında hərbi vəziyyət iyulun 21-də Rusiya və Suriya prezidentləri arasında baş tutan telefon danışığı zamanı da müzakirə olunub. Rusiya və Suriya arasında diplomatik əlaqələrin qurulmasının 75-ci ildönümü münasibətilə Bəşər Əsəd və Vladimir Putin bir-birilərini təbrik edib. Kremldən verilən məlumatda qeyd olunur ki, Putinin diplomatik münasibətlərin qurulmasının 75-ci ildönümü münasibətilə Əsədə göndərdiyi təbrik mesajında ötən 10 il ərzində Suriya-Rusiya münasibətlərində önəmli təcrübə əldə olunduğu vurğulanıb. Putin Suriya və Rusiyanın beynəlxalq terrorizm və radikalizmə qarşı mübarizədə müttəfiqlik əlaqələrinin davam etdiyini qeyd edib.

Sitat: **"Birgə cəhdlərimiz nəticəsində Suriya torpaqlarında terror qüvvələrinin yekun məğlubiyyətə uğradılacağına əminəm. Rusiya tərəfinin suverenlik və ərazi bütövlüyünün qorunmasında, milli təhlükəsizliyin və böhrandan sonra ölkənin yenidən inşasında Suriya hökumətinə və xalqına dəstək verməyə davam edəcəyini bildirmək istəyirəm".**

Suriya hökumətinin isə yaydığı cavab açıqlamasında Bəşər Əsəd Rusiya ilə tarixi dostluqdan qürur duyduğunu bildirib.

Qeyd edək ki, Suriya və Rusiya (SSRİ) arasında əlaqələr 75 il əvvəl yaransa da, iki ölkə arasında münasibətlərin istiləşdiyi dövr "soyuq müharibə" dövrünə təsadüf edir. Suriya bu dövrdə SSRİ-nin regionda əsas müttəfiqlərindən birinə çevrilib. 1971-ci ildə SSRİ Hərbi Dəniz Qüvvələrinin bazası Suriya ərazisində yerləşdirilib. Suriya və SSRİ arasında anlaşma əsasında Suriyanın Tartus liman şəhərində SSRİ hərbi-dəniz bazası qurulub. Hazırda bu baza Rusiyanın Aralıq dənizində və ümumiyyətlə, postsovet məkanından kənarda yeganə hərbi bazası hesab olunur.

Bəşər Əsədin hakimiyyəti illərində Rusiya və Suriya arasında əlaqələr yüksək səviyyədə olub. Ancaq 2011-ci ildə Suriyada silahlı münaqişə başladıqdan sonra Dəməşq Moskva ilə daha da yaxınlaşıb. Rusiya 2012-ci ildən etibarən Suriyada Bəşər Əsədə dəstək məqsədilə Suriyaya hərbi qüvvə göndərib. Eyni zamanda Rusiya siyasi olaraq Suriyanı dəstəkləyib, 2013-cü ildə Suriyaya hərbi müdaxilə ilə bağlı BMT-də keçirilən səsvermə Rusiyanın vetosundan sonra qəbul olunmayıb.

2015-ci ilin 30 sentyabrından isə Moskva Suriyada aktiv hərbi əməliyyatlara qoşulub. Müxtəlif vaxtlarda Suriyada hətta 20 min rus hərbçisinin olduğu bildirilsə də, bu məlumatlar təkzib olunur. Rəsmi kanallar 2-5 min arasında rus hərbçisinin davamlı olaraq Suriyada xidmət etdiyini qeyd edir. Bunların içərisində hərbi-dəniz, aviasiya, raket qüvvələri və son bir ildə hərbi polis qüvvələri də olub. Bundan başqa, rusiyalı minaaxtaranlar da Suriyada xidmət etməyə başlayıb. Ehtimal ki, ruslar nisbətən ağır texnikanı, o cümlədən hərbi hava qüvvələrinin böyük hissəsini çıxaracaqlarını bəyan ediblər. Hazırda Suriyada əsasən sapyor xidməti, o cümlədən hərbi polis və Hava Hücumundan Müdafiə qüvvələri - S-400 batareyaları mövcuddur.

Putinin təbrik mesajında Rusiyanın Suriya ilə hərbi əməkdaşlığının davam edəcəyi, eyni zamanda münaqişənin siyasi həlli və ölkənin bərpasına da dəstək verəcəyi qeyd edilir. Bu həm də Suriyanın gələcəyi ilə bağlı Putinin "dost-düşmənə" mesajıdır. Rusiyanın bugünlərdə iki yüksək rütbəli məmuru Dəməşqə gedərək İdlibdəki vəziyyət və Konstitusiya Komissiyasının qurulması məsələsini müzakirə edib. Putin tezliklə İdlibdə təmizlənmə əməliyyatının başlaması və siyasi anlaşmanın əldə olunmasını istəyir. Suriya mərhələsinin qapanması indi Rusiya üçün çox vacibdir.

❑ **Kənan RÖVŞƏNOĞLU, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 153 (7323) 23 iyul 2019

# "Yerli heyvanlar, yoxsa xaricdən gətirilən cinslər" dilemması

## Kənd təsərrüfatı sahəsi üzrə ekspert: "Heyvandarlıqda cins tərkibin yenilənməsi zərurətə çevrilib"

**Azərbaycan son illərdə heyvandarlıq məhsullarının idxalını xeyli artırıb. Rəsmi statistik məlumatlara görə, hazırda ölkəyə illik süd və süd məhsullarının (süd ekvivalentində) idxalı təxminən 350 min ton, ət məhsullarının idxalı isə 58 min ton təşkil edir. Bu məhsullar üzrə idxalın dəyər ifadəsində həcmi süd məhsulları üzrə illik 114 milyon ABŞ dolları, ət məhsulları üzrə isə illik 63 milyon ABŞ dollarına bərabərdir.**

Ölkədə 2017-ci ilin yekunlarına əsasən ət istehlakı illik 364.3 min ton, o cümlədən, mal əti 150.1 min ton, qoyun əti 79.2 min ton, donuz əti 8.3 min ton, quş əti isə 126.7 min ton təşkil edir

Ölkədə bütün növ ət və ət məhsullarının istehsal həcmi 316.8 min ton, özünütəminetmə səviyyəsi 84.7 faizdir.

Azərbaycanda 2017-ci ildə illik süd istehsalı 2024 min ton, süd və süd məhsulları üzrə özünütəminat səviyyəsi isə 86.1 faiz təşkil edib.

Azərbaycanda 2.6 milyon başdan çox iribuynuzlu, 8.45 milyon baş xırdabuynuzlu heyvan var. Rəsmi məlumatlara əsasən bu heyvanların əsas hissəsini yerli cinslər təşkil edir. Ölkə üzrə cins mal-qaranın sayı 30 min baş civarındadır.

Azərbaycanda aqrar sahəyə məsul olan Kənd Təsərrüfatı Nazirliyi "Azərbaycan Respublikasında 2019-2023-cü illərdə heyvandarlığın intensiv inkişaf etdirilməsinə və örüş-otlaq ərazilərinin səmərəli istifadə olunmasına dair Dövlət Proqramı" hazırlayır. Dövlət Proqramı çərçivəsində tikiləcəyi planlanan heyvandarlıq komplekslərində yerləşdiriləcək və əhaliyə satılacaq damazlıq heyvanlar hesabına ölkədəki ümumi cins iribuynuzlu heyvan sayını 10 il ərzində 30 min başdan 210 min başa çatdırmağı, ümumi iribuynuzlu heyvan sayını isə daha məhsuldar heyvanlar səbəbi ilə 2.67 milyon başdan 2.59 milyon başa qədər azaltmağı nəzərdə tutur. Həmin dövrdə xırdabuynuzlu heyvan sayı 8454 min başdan 8771 min başa qədər artacaq ki, bunun da 317 min başını cins heyvanlar təşkil edəcək.

Qeyd edək ki, 2004-cü ildən etibarən Azərbaycana xaricdən cins mal-qara idxalına başlanılıb. KTN-in "Aqrolizinq" ASC vasitəsilə 14 ildə ölkəyə 35 min başdan yuxarı cins mal-qara gətirilərək, lizinq yolu ilə aqrar istehsalçılara satılıb. Dövlət cins heyvanların dəyərinin 50 faizini özü qarşılayır.



Maraqlıdır ki, Azərbaycanda bir çox yerli istehsalçılar idxal olunan cins heyvanların yerli iqlimə uyğunlaşmasının çətin olduğunu, onların müxtəlif xəstəliklərə davamsızlığını əsas gətirərək, ölkədə mövcud olan yerli cinsləri saxlamağın daha əlverişli olduğunu bildirirlər. Qeyd olunur ki, gətirilən heyvanlar izafi diqqət və qayğı tələb edir, bunu isə hər istehsalçı təmin edə bilmir. Nəticədə isə gətirilən heyvanlar ya tələf olur, ya da gözləniləndən qat-qat aşağı məhsuldarlıq əldə edilir.

**Bu, nə qədər doğru yanaşmadır? Ölkəyə gətirilən xarici cins heyvanların məhsuldarlığı yüksək olurmu? Kənd təsərrüfatı sahəsi üzrə ekspert Nicat Nəsirlinin "Yeni Müsavat"a dediyinə görə, heyvandarlıqda cins tərkibin yenilənməsi sovet dövründə də həyata keçirilən bir proses olub:** "Sonuncu dəfə ötən əsrin 70-ci illərində Azərbaycanda mal-qaranın cins tərkibi yeniləndi. O zamanlar yerli iqlim şəraitinə dözümlü, yemləmə rasionlarına uyğunlaşmış cinslər əldə olunmuşdu. Həmin cinslər arasında "şvis" deyilən heyvanlar daha çox məşhurlaşmışdı. Daha sonra cənub regionuna zebular gətirilərək yerli cinslərlə çarpazlaşdırılmış və kifayət qədər uğurlu yerli cinslər əldə edilmişdi. Sovet sistemi dağılandan sonra cinslərin məhsuldarlıq göstəriciləri sürətlə itirildi. Bu gün reallıq belədir ki, Azərbaycanda bir inəkdən ildə 1,2-1,5 ton süd alırıq, amma xaricdə bu göstərici 10-12 tona çatır. Bütün bunlar ölkədə mal-qaranın cins tərkibinin yenilənməsini zəruri edir".

**Mütəxəssis bildirir ki, xaricdən idxal hesabına heyvandarlıqda cins tərkibi tam yeniləmək mümkün deyil:** "Cins heyvanları gətirərək burada onlardan yerli şəraitə uyğunlaşmış cinslərin alınması prosesi həyata keçirilməlidir. Hazırda məhz bu proses gedir. Azərbaycan iqliminə görə əsasən 3 cinsin üzərində dayanılır. Bunlar "alaqara", "şvis" və "smental" cinsləridir. Ətlik, südlük və ətlik-südlük tipli cinslərdir. Bu heyvanları gətirərkən ilk nəsil iqlimə qarşı dözümsüz olur. Yalnız onlardan alınan ikinci nəsil heyvanlar yerli şəraitə tam uyğunlaşmış olur. Yəni burada doğulub, böyüyən heyvanlar uyğunlaşmış sayılır".

**Hazırda dünyada hər il təxminən 1,2 milyard dollar dəyərində cins heyvan ixracı həyata keçirilir. Əsas ixracatçılar arasında Azərbaycanın da mal-qara aldığı Almaniya birinci yerdədir. Daha sonra Avstraliya, Fransa, Hollandiya və Danimarka gəlir . Ümumiyyətlə, Avropa ölkələri, ABŞ, Avstraliya, Yeni Zelandiya və Uruqvay dünya üzrə cins heyvan ixracının 90 faizdən çoxunu həyata keçirirlər. N.Nəsirlinin dediyinə görə, əksər ölkələr yetişdirdikləri cins heyvanların genofondunu heç kimə vermirlər:** "Bu gün dünyada belə genofondlar uğrunda mübarizə gedir. Fransa, Almaniya, hətta Rusiya belə yaradılan məhsuldar cinslərin genofondunu qapalı saxlayırlar. Yəni əsas cinsin özünü deyil, ikinci-üçüncü nəsil heyvanları verirlər. Bu, xırda buynuzlu heyvanlarda, quşlarda, bitkiçilikdə də belədir. Təsəvvür edin ki, Rusiyada yetişdirilən Romanov qoyun cinsinin genofondunu əldə etmək üçün Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan şəxsən Vladimir Putinə müraciət etmişdi".

**Açıq otarma iqtisadi baxımdan səmərəsiz hesab olunur:** "Qapalı rejimdə saxlanan və yemlənən heyvanlar daha məhsuldar olur. Buna görə də Azərbaycanda qapalı saxlama rejiminə keçilməsini təmin etmək lazımdır. Hətta kiçik təsərrüfatlarda belə işin bu rejimlə qurulması zəruridir. Kənd Təsərrüfatı Nazirliyi tərəfindən heyvandarlığın inkişafı və otlaq-örüş yerlərindən səmərəli istifadəyə dair proqram hazırlanır. O proqramda bu məsələlərin hamısı əksini tapıb. Bunlar çox vacib məsələlərdir. Çünki Azərbaycanda qırmızı ətə, süd məhsullarına olan tələbat böyükdür. Biz bu gün qırmızı ətlə bağlı idxaldan asılıyıq - həm diri, həm də kəsilmiş formada ət idxalı yüksək həddədir. Buna görə də ölkənin iqlim və yemləmə şərtlərinə uyğunlaşmış cinslərin yetişdirilməsi çox vacibdir. Bu istiqamətdə böyük işlər başladılıb, yəqin ki, bir neçə ilə müsbət təsirlərini görmək mümkün olacaq".

❑ **Dünya SAKİT, "Yeni Müsavat"**




## Özəlləşdirmədə növbəti iştirak imkanı

### 87 dövlət əmlakı 20 avqustda hərraca çıxarılacaq

**Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən göstərilən hərrac xidmətləri hər kəsin dövlət əmlaklarının özəlləşdirilməsində rahat iştirakını təmin edir. Cəlbedici əmlakların hərraca çıxarılması ilə investorlar faydalı sahə, qiymət, ərazi, torpaq sahəsi baxımından müxtəlif olan dövlət obyektləri üzrə seçim edə bilər. Komitə tərəfindən özəlləşdirmədə növbəti iştirak imkanı 20 avqust tarixindəki hərracda yaradılacaq. Bu dəfə prosesə ümumilikdə 87 dövlət əmlakı çıxarılıb. Onlardan 37-si kiçik dövlət müəssisə və obyekti, 15-i səhmdar cəmiyyəti, 12-si qeyri-yaşayış sahəsi, 5-i yarımçıq tikili, 18-i isə nəqliyyat vasitəsidir.**

Respublikanın müxtəlif şəhər və rayonlarında yerləşən kiçik dövlət müəssisələrinin faydalı sahəsi 12.2 kv.m ilə 2889 kv.m intervalındadır. Bu dövlət əmlaklarından çoxu özəlləşməyə torpaq sahəsi ilə birgə çıxarılıb. Onlar arasında ticarət və xidmət müəssisələri, təsərrüfat obyektləri, qeyri-yaşayış binaları var. Şəki şəhəri, B.Məmmədov küçəsindəki dövlət əmlakının faydalı sahəsi 151,3 kv.m-dir. İnvestor xidmət sahəsi üzrə gəlirli fəaliyyət imkanları olan bu obyekti 213.5 kv.m-lik torpaq sahəsi ilə birgə özəlləşdirə bilər.

Hərraca çıxarılan qeyri-yaşayış sahələrinin faydalı sahəsi 9.2 kv.m ilə 127.4 kv.m arasındadır. Bu dövlət əmlaklarından 7-si paytaxtda, digərləri isə Sumqayıt, Şirvan, Ağdaş, Daşkəsən və Bərdədə yerləşir. Ən yüksək faydalı sahəsi olan qeyri-yaşayış sahəsi Bakı şəhəri, Nərimanov rayonu, Əşrəf Əliyev küçəsindədir. Bu dövlət əmlakı xidmət, ticarət və ya ofis obyekti kimi istifadəyə uyğundur.

Səhmdar cəmiyyətlərinin 30% ilə 45% arasında olan səhm paketləri özəlləşdirilməyə çıxarılıb. Bu kateqoriyadan olan dövlət əmlakları Lənkəran, Şirvan, Kürdəmir kimi şəhər və rayonlarda yerləşir. Potensial investorlar səhmdar cəmiyyətləri üzrə seçimlərini "Xəzər Avtonəqliyyat", "Kürdəmir Aqrotexservis", "Daşkəsən Aqrotexservis" və digər əmlaklar üzrə edə bilər.

Buraxılış ili 1990-2009 olan nəqliyyat vasitələri də budəfəki hərraca çıxarılıb. Avtomobil sahibi olmaq istəyən şəxslər Nissan, Kia, Chevrolet, Hyundai və digər markalardan olan nəqliyyat vasitələri üzrə seçim edə bilər.

Özəlləşdirməyə qoşulmaq istəyən şəxslər onlayn formada qeydiyyatdan keçərək seçdiyi dövlət əmlakının ilkin qiymətinin 10%-i həcmində behi ödəyib hərracda iştirak statusu qazana bilər. Bunun üçün komitənin rəsmi saytı (emdk.gov.az) və ya Özəlləşdirmə portalına (privatization.az) daxil olmaq kifayətdir. Qeyd edək ki, komitənin keçirdiyi hərraclarda istənilən şəxs sifarişçi və müşahidəçi kimi həm canlı, həm də onlayn formada iştirak edə bilər.

Yeni Müsavat
N 153 (7323) 23 iyul 2019

# İti və ya atı kəfənləyərək dəfn etmək?.. - İslam bunu necə qarşılayır?

## İlahiyyatçı: "Bu, nə ağıla, nə də məntiqə sığır..."

**Qubada at kəfənlənərək dəfn edilib. Bugünlərdə yayılan məlumat həm mətbuatda, həm də sosial mediada xeyli maraq doğurub. Xezerxeber.az-ın məlumatına görə, hadisə Qubanın Buduq kəndində baş verib. Adı qeyd edilməyən Quba sakini Məkkədən geri döndükdən sonra atını kəfənləyərək dəfn edib. Onun bu addımı atmasına səbəb isə atın öz sahibini sağ-salamat gətirib kəndə çatdırması olub.**

Sakinlərin sözlərinə görə, qədim zamanlarda bu kənddən xeyli insan Məkkə ziyarətinə gedib. Ziyarətə gedən qruplardan birində 20 nəfər olub və onlar atlarla gedib. Atlardan 19-u aclıq və susuzluqdan yolda ölüb. Biri isə müqəddəs torpaqları ziyarət etdikdən sonra sahibini kəndə çatdırıb və oradaca ölüb. Sahibi də ata hörmət əlaməti olaraq onu kəfənləyib və oradaca dəfn edib. Heyvanın qəbrinin yerinin bilinməsi üçün də üzərinə daş qoyub. Sonralar isə ərazidən keçənlər atın basdırıldığı yerə daş atıblar ki, qəbir itməsin. Həmin yeri "Daşqalağı piri" adlandırırlar.

İlahiyyatçılar isə bildirir ki, kəfənləyərək dəfn etmək və qəbir hazırlamaq insan üçün buyurulub. Heyvan üçün bunu etmək doğru deyil və xurafata yol açır.

Qeyd edək ki, bu cür hadisələrin adətən xristian ölkələrində yaşandığının şahidi oluruq. Məsələn, bir neçə il bundan əvvəl ABŞ-da postda ölən it üçün xüsusi təmtəraqlı dəfn mərasimi keçirilmişdi. Qeyd edək ki, ölən it polisə məxsus idi və ölənə qədər postda durub. Bu dəfn mərasimi hər kəsi təəccübləndirmişdi. Çünki it üçün təşkil olunan mərasim xidmət zamanı həlak olan polislərin dəfnindən heç nə ilə fərqlənmirdi.

Beləliklə, Avropa və digər ölkələrdə eyvanlar üçün təşkil edilən nəinki dəfn, həmçinin toy mərasimləri də artıq adi hal kimi qarşılanır. Bu cür mərasimlər zamanı heyvanlar üçün restoranda toy məclisi təşkil edilir, çoxsaylı qonaqlar dəvət olunur, nikah kəsilir, "evləndirilən" heyvanlar üçün tort kəsilir, sağlıqlar deyilir, onlara bahalı hədiyyələr verilir, toy gəzintisi olur və sairə. Məsələn, ötən il yay mövsümündə Hindistanın şimalında yerləşən Uttar-Pradeş ştatında iki it üçün səs-küylü toy mərasiminin keçirilməsi ilə bağlı dünya mətbuatında məlumat yayılmışdı. Məlumata görə, mərasimə 5 min nəfər qonaq qatılıb. Maraqlıdır ki, toyun daha şən keçməsi üçün dicey də çağırılıb. Həmçinin toyda qədim hind ənənə və ayinlərinə əməl edilib, sanki nikah insanlar arasında bağlanıb.

Artıq ölkəmizdə də bu cür nümunə baş verib. Belə ki, Goranboy rayonunda bir biznesmen itlərinə bahalı toy məclisi keçirmişdi. Məclisdə itlərin şərəfinə tort kəsilməsi, plov, kabab bişirilməsi, qonaqların itlərin şəninə sağlıq deyib, xoşbəxtlik arzulaması, hətta aşıqların çalıb-oxuması və sairə... - bütün bunlar ölkəmiz üçün görünməmiş olay idi və böyük qıcıqla qarşılanmış, qınaq obyektinə çevrilmişdi. Məclisdə çalıb-oxuyan aşığı müşayiət edən balabançı Aşıqlar Birliyindən qovulmuşdu.


Emil Rahiloğlu

Buna qədər isə bəzi sənətçilər də heyvanlarına toy edəcəyi ilə bağlı yarızarafat-yarıciddi açıqlamalar vermişdilər. Məsələn, əməkdar artist Elza Seyidcahan pişiyinə toy etmək arzusunda olması ilə bağlı açıqlama vermişdi. Bəstəkar-müğənni artıq toya dəvət edəcəyi sənətçilərin də siyahısını açıqlamışdı. Müğənni Ceyla, "pişik Günel", "əjdaha Nadir", Səməd Səmədovun özü də zamanında itinə toy etmək istədiyini bildirmişdi.

**Ötən gün isə müğənni Aysel Əlizadə öz itinə ad günü keçirdi. Sənətçi zamanında 10 min dollara aldığı itinin şamını üfürən yerdə çəkdirdiyi görüntünü sosial şəbəkədə yayımlayıb. Müğənni paylaşımında qeyd edib:**

"Bölüşdüklərimi anlaya, cavab verə bilməyən, amma mənimlə sevgisini bölüşən, hiss edən itim. Gözlərimə diqqətlə baxıb, halımı anlayan, bir çoxundan vəfalı itim, səni sevirəm".

**Beləliklə, maraqlıdır, İslam dini heyvanın kəfənlənərək, xüsusi qaydada dəfn olunmasını necə qarşılayır? Mövzu ilə bağlı ilahiyyatçı Emil Rahiloğlu "Yeni Müsavat"a danışdı:** "Ümumiyyətlə, İslam dinində insanın və heyvanın öz yeri var. Lakin İslam dinində bu cür dəfn yalnız insana məxsusdur. İnsan Allahın ən üstün varlığıdır. Tanrı insanı yaratdıqdan sonra özünə "Bərəkallah" deyib. Yəni Allah insanı yaratdıqdan sonra onu şah əsəri olaraq bütün yaradılışa təqdim edib. Məsələn, biri yaxşı insan olduqda barəsində deyərlər ki, "mələk kimi insandır". Halbuki insan yarandıqdan sonra Allah mələklərə insana səcdə etməyi əmr edib. Dəfn, kəfən, dəfnə aid qaydalar bir növ insanın Allah qarşısında dəyəri və qiymətidir, yəni onun cansızı, meyiti belə dəyərlidir. Ona görə də Allah-təala buyurur ki, insanı bu şəkildə dəfn edəsiniz.

Amma heyvana gəldikdə, hətta at və yaxud hansısa heyvan imama, Həzrət Əliyə məxsus olsa belə, onları adi şəkildə, ən azı iylənməsin, mikrob yayılmasın deyə yer qazıb, basdırmaq olar. Amma onu kəfənləyib, xüsusi qaydada dəfn edəsən, hətta işarət də qoyasan, bu artıq şəxsi məsələdir, bunun İslam dininə aidiyyəti yoxdur. Hətta Qurani-Kərimdə Əshabi Şəfin iti ilə bağlı surələr də var. Amma müqəddəs kitabımızda o itin xüsusi dəfn olunması ilə bağlı heç bir məlumat, göstəriş yoxdur. Ümumiyyətlə, göstəriş verilməsi də ağılla, məntiqlə qəbul olunası deyil. Heyvan və digər məxluqat, yaradılış yalnız insan və bəşəriyyət üçün xəlq olub".

❑ **Xalidə GƏRAY, "Yeni Müsavat"**

# Gəncəli "qanuni oğru"dan şok sözlər: "Anam elmlər namizədi, atam akademikdir"

## "Rəşad Gəncinski" Minsk məhkəməsinin hakiminə deyir: "Siz tez-tez təkrar edirsiz: oğru, oğru, oğru... Mən küçədən gəlməmişəm"

**Minsk rayon məhkəməsi həftəsonu azərbaycanlı "qanuni oğru" Rəşad İsmayılovun ("Rəşad Gəncinski") və digər iki nəfərin işi üzrə hökmü elan edib.**



"Rəşad Gəncinski" ilə bərabər həbs edilən sürücü Vaydar Məmmədov Azərbaycan vətəndaşıdır, müvəqqəti olaraq Moskvada yaşayır və rəsmi olaraq sürücü kimi çalışır. Digər bir nəfər isə belarusludur.

Müttəhimlər hüquq-mühafizə orqanlarının əməkdaşları tərəfindən Minsk yaxınlığındakı elit klubların birində silah, narkotik maddələr və saxta sənədlərlə saxlanılıblar.

Hadisə 2018-ci il noyabrın 20-də baş verib. Saxlanma zamanı R.İsmayılovun üzərindən başqasının adına pasport tapılıb. Onun sürücüsü olan belarusluda iki tapança və patronlar, digər azərbaycanlıda isə həşiş aşkar edilib.

Müttəhimlər qismən təqsirli olduqlarını etiraf ediblər.

Minsk rayon məhkəməsi "Rəşad Gəncinski"nin 10 il azadlıqdan məhrum olunması haqda qərar qəbul edib.

Vaydar Məmmədova 6 il azadlıqdan məhrumetmə cəzası verilib. Belarus vətəndaşı 8 il müddətinə azadlıqdan məhrum edilib.

"Rəşad Gəncinski" məhkəmədə son sözlə çıxış edib və özü barədə sensasion faktlar açıqlayıb. Belarus mediası yazır ki, azərbaycanlı "qanuni oğru" kifayət qədər emosional nitq söyləyib.

**O, öncə silahla bağlı ittihamdan danışıb. Deyib ki, onun şəxsi təhlükəsizlik xidməti olub və onu qanuni silahla qoruyublar. Amma Belarusa gələrkən silaha heç bir ehtiyac hiss etməyib və bu səbəbdən üzərindən silah tapılması ittihamını rədd edir.** "Mən o paslanmış tapançanın şəklini gördüm. Əgər kimsə mənim yanımda o cür silah gəzdirsəydi utanardım". Gəncinski deyib ki, həbs edərkən ona silahla bağlı heç nə deməyiblər. Yalnız səhəri gün müstəntiqlər ona silahın şəklini göstərərək axtarış zamanı tapıldığını və əl izlərinin olduğunu deyib. "Qanuni oğru" yada salıb ki, onu bir müddət əvvəl Abxaziyada yaralayıblar. "Mən özümlə dırnaqtutan belə gəzdirmirəm" deyə, o məhkəmədə bildirib.

**Saxta pasport ittihamına gəlincə, o bildirib ki, 2012-ci ildən bu pasportu istifadə edir.** "Bəli, mənim pasportum var, amma hansı mənzilimdə olduğunu bilmirəm. Mən Gürcüstanda, Yunanıstanda, hər yerdə bu pasportu istifadə etmişəm. Belarusda da heç bir qanun pozuntum olmayıb. Qoy bir nəfər desin ki, burada kimisə incitmişəm, hansısa pis niyyətim olub. Bura pul xərcləməyə gəlmişdim".

**"Gəncinski" deyib ki, onun dörd uşağı var.** "Eyni zamanda iki arvadım var, heç biri ilə rəsmi nikahda deyiləm. Mənim inancım ikiarvadlılığa izn verir. Həyat yoldaşlarım bir saat belə işləməyib. Uşaqlarım yaxşı məktəbə gedir, mən onları hər şeylə təmin edirəm". **Azərbaycanlı "qanuni oğru"nun bundan sonra dedikləri isə əsl sensasiya ola bilər:** "Siz tez-tez təkrar edirsiz: oğru, oğru, oğru... Mən küçədən gəlməmişəm. Hamı hər şey deyə bilər. Mənim xəstə anam var, əməkdar elm xadimi, elmlər namizədidir. 66 yaşında olan anam mənim himayəmdədir. Mənim vəfat edən atam akademik olub, onu Belarusda da yaxşı tanıyırlar". **"Gəncinski" deyib ki, o, Belarusda kiminsə cibinə girməyib, kiməsə pislik etməyib:** "Mənim biznesimlə 30-dan yuxarı ailə dolanır. Mən uşaq evlərinə gedirəm, yetimlərə sponsorluq edirəm ki, rahat böyüsünlər və narkotikdən uzaq olsunlar. İşim dayanıb. Özüm də asma xəstəsiyəm. Səkkiz aydır həbsdəyəm. Bu müddət mənə bəs edər. Hər yerə getdiyim pasportla Belarusa da gəlmişəm. Bura gəlməyin mümkün olmadığını bilmirdim. İndi mənə 10 il həbs cəzası kəsirsiz. Niyə axı...?" "Rəşad Gəncinski" deyib ki, o, daima şiddətə qarşı olub və öldürmək onun işi deyil. "Mən ova da ancaq balığa gedirəm" deyə, o bildirib.

"Gəncinski"nin vəkillərinin hökmdən şikayət verəcəyi gözlənilir.

❑ **ORXAN, musavat.com**

### Elan

**Ağdaş rayonu Kotanarx kənd sakini Məmmədova Kəbirə Yaqub qızına məxsus JN-0040 saylı Dövlət aktı itdiyi üçün etibarsız sayılır.**

***

**Ağdaş rayonu Kotanarx kənd sakini Abdulkərimov Ağakərim İsmayıl oğluna məxsus JN-0041 saylı Dövlət aktı itdiyi üçün etibarsız sayılır.**



# "Nar" Milli Mətbuat Günündə media nümayəndələrini intellektual yarışda bir araya topladı

**Ölkənin ən gənc mobil operatoru "Nar", 22 iyul - Milli Mətbuat Gününü media nümayəndələri ilə birgə qeyd edib. Mobil operator 35 media orqanını təmsil edən 80-ə qədər media nümayəndəsini artıq ənənə halını alan intellektual yarışmada bir araya toplayıb.**

Bilik yarışmasında 15 komanda iştirak edib. İntellekt yarışında artıq ikinci ildir ki, qalibiyyəti əldən buraxmayan "Komanda" komandası 1-ci yeri, "Report" İA-ni təmsil edən komanda 2-ci, "Azxəbər" komandası isə 3-cü yerləri tutublar. Qalib komandalara "Nar" tərəfindən xüsusi hədiyyələr təqdim edilib. Qeyd edək ki, yarış iştirakçılarına 7 tur boyunca ümumi biliklərlə yanaşı, milli və dünya mədəniyyətinə, tarixə, texnologiyaya aid müxtəlif çətinlik dərəcələrində suallar verilib.

"Bugün Zərdabi davamçıları olaraq sizləri intellektual yarışda bir arada görməkdən böyük qürur hissi duyuram. İctimaiyyətin məlumatlandırılmasına, maarifləndirməyə, düzgün dəyərlərin təbliğinə yönəlik əvəzsiz əməyiniz üçün "Nar" adından bütün media nümayəndələrinə təşəkkür edir, məsuliyyətli və şərəfli peşə yolunuzda uğurlar diləyirəm", - deyə "Azerfon" MMC-nin İctimaiyyətlə Əlaqələr Departamentinin rəhbəri Əziz Axundov Milli Mətbuat günü münasibətilə keçirilən tədbirdə bildirib.

Qeyd edək ki, 22 İyul Azərbaycan Respublikası Milli Mətbuat və Jurnalistika günü kimi qeyd olunur. Bu gün milli mətbuat tarixinin başlanğıcı hesab olunan Həsən bəy Zərdabinin 1875-ci ildə təsis etdiyi "Əkinçi" qəzetininin ilk sayının nəşr edildiyi gündür.

"Nar" hər zaman elmə, təhsilə, biliyə olan marağı artırmağa səy göstərir və maariflənməni təşviq etmək məqsədilə müxtəlif sosial layihələr həyata keçirir, eyni zamanda intellektual yarışların əsas dəstəkçisi rolunda çıxış edir. Layihələr haqqında daha ətraflı məlumat üçün: https://bit.ly/2Ya4VQR ttps://bit.ly/2Ya4VQR

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 97,5 %-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 7800-dən artıq baza stansiyası ilə 2,3 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.

YENİ MÜSAVAT
N 153 (7323) 23 iyul 2019

# İldırımdan necə qorunmalı - rəsmi təlimat

## Hindistanda 32 nəfəri şimşək öldürdü; toplu halda dayanmaq riski daha da artırır...

**Hindistanda bir gündə ildırım vurması nəticəsində 32 nəfər ölüb, daha 13 nəfər xəsarət alıb. Hadisə ölkənin müxtəlif yerlərində, ümumilikdə 10 yaxın şəhərdə baş verib.**



Bəs ildırım vurma hadisəsi necə baş verir? İldırımdan necə qorunmaq olar?

"Yeni Müsavat" olaraq bu barədə bir sıra məlumatları diqqətinizə çatdırırıq.

İnsan həyatı üçün təhlükəli təbiət hadisələri arasında ildırım özünəməxsus yer tutur. Orta hesabla yer səthinin hər kvadratkilometrinə ildə 6 dəfə ildırım düşür. Hər saniyədə dünyanın müxtəlif nöqtələrində təxminən 100 ildırım qeydə alınır. Fırtına, qasırğa, tufan kimi təbiət hadisələri ilə müqayisədə ildırımvurmadan ölən insanların sayı daha çoxdur. Hər il dünyada 3000-ə yaxın insan ildırımvurma nəticəsində dünyasını dəyişir. İldırımla bağlı ölənlərin sayının artması isə insanların bu təbiət hadisəsindən kifayət qədər qoruna bilmədiklərini göstərir.

Məsələ ilə bağlı Fövqəladə Hallar Nazirliyindən "Yeni Müsavat"a bildirilib ki, ildırımdan qorunmaq üçün nazirlik tərəfindən də təlimat məlumatları paylaşılır. Bu barədə nazirliyin saytında da maarifləndirici informasiyalar yer almaqdadır. Bildirilir ki, ildırımın düşməsi konkret olaraq ağacların hündürlüyü ilə düz mütənasibdir. Ona görə də insanlar meşədə olduğu zaman ağacların vəziyyətini nəzərə alaraq, ildırımdan qoruna bilərlər. Belə ki, əgər ağacın hündürlüyü 4 metr olarsa, onda həmin ağacdan 4 metr aralı dayanmaq lazımdır. Ağacların elektrik keçiriciliyi və müqaviməti müxtəlif olduğu üçün onların ildırım vurması da müxtəlif olur. Belə ki, bəzi ağacların tərkibi nişasta ilə çox zəngin olduğu üçün onların elektrik keçiriciliyi yüksək, müqaviməti isə az olur. Ona görə də belə ağacları ildırımlar daha tez-tez vurur. Bu ağaclara palıd, qovaq, göyrüş və qarağacı nümunə göstərmək olar.

**FHN-in yaydığı məlumatlarda aşağıdakılar bildirilir:**

"Ağ şam, qara şam, çökə, fıstıq, qoz və küknarı ildırım az vurur. Bu, həmin ağacların tərkibi ilə bağlıdır. Ağcaqovaq və toz ağaclarını isə ildırım nadir hallarda vurur.

İldırımlar atmosferdə daima hərəkət edən müxtəlif ölçülü buludların hərəkəti və toqquşması nəticəsində əmələ gəlir. Əksər hallarda ildırımlar qasırğa və güclü leysan yağışları ilə müşahidə olunur. Buludlar xırda su damcılarından və kiçik buz zərrəciklərindən ibarətdir. Buludlar yer səthindən 0,5-1 kilometrdən başlamış 6-7 kilometr məsafəyədək hündürlükdə ola bilirlər. Yer səthindən 3-4 km-dən yuxarı atmosferdə temperatur sıfır dərəcədən də aşağı olur. Bu kiçik buz hissəciklərindən ibarət olan buludlar yerin qızmış səthindən qalxan isti hava axınlarının təsiri nəticəsində daima hərəkətdə olurlar. Kiçik buz parçaları yüngül olduğu üçün böyük buz parçaları ilə toqquşarkən onlar buludun üst səthi ilə hərəkət edirlər. Hər bir toqquşma zamanı elektrikləşmə hadisəsi baş verir. Bu zaman xırda buz hissəcikləri müsbət, böyük buz parçaları isə mənfi yüklənirlər. Beləliklə buludun üst hissəsi müsbət, alt hissəsi isə mənfi yüklənmiş olur. Normal halda buludlar 20 km/saat sürətlə hərəkət edir. Bəzi hallarda isə onların sürəti 65-80 km//saata çata bilir. Elektrik boşalması buluddaxili, buludlararası, buludlarla atmosfer havası arasında və nəhayət, buludlarla yer səthi arasında baş verir".

Mütəxəssislər bildirirlər ki, elektrikləşməyə səbəb buludlardan gələn mənfi yüklü hissəciklərlə yer səthindən qalxan müsbət yüklü hissəciklərin birləşməsidir. Bu zaman yerə intensiv elektrik axını başlayır. Elektronlar seli yer səthinə çatdıqda buludlarla yer səthi arasında qısamüddətli elektrik boşalması baş verir ki, bu da özünü səslə müşahidə olunan və ətrafa işıq saçan ildırım kimi göstərir. Şimşəkçaxma zamanı ildırım ehtimal olunan yerlərdə ildırım xətti boyunca güclü ionlaşma baş verir, əvvəlcə sərbəst elektronlar əmələ gəlir, eyni zamanda kosmik şüalarda da ionlaşma gedir və ətrafa işıq saçan ildırımlar baş verir. Bu elektrik boşalmaları atmosferdə buludlar arasında və ya buludlarla yer səthi arasında baş verir. İldırım zamanı yüksək keçiriciliyə malik ionlaşma xəttində yüksəktezlikli cərəyanın şiddəti 10 000- 30 000 amper intervalında dəyişir. İonlaşma xətti boyunca elektronlar işıq sürətinə yaxın sürətlə yer səthinə çatır.

Mütəxəssislərin rəyinə görə, açıq sahədə şiddətli şimşək və yağış altında saçların qalxdığı hiss edilirsə, bu ildırım düşmə riskinin olması (ildırımın baş verəcəyindən xəbər verir) deməkdir. Belə hallarda ayaqlar birləşmiş vəziyyətdə dərhal diz üstə yerə çökülməsi, əllərin dizlərin üstünə qoyulması və önə doğru əyilmək tövsiyə olunur. Bu "embrion vəziyyəti" adlanır. Yağışlı və göy gurultulu havada küçədə olarkən ildırımdan qorunmaq üçün bayraq, telefon, işıq və buna bənzər digər metal dirəklərdən uzaqda dayanın, çünki bu cür dirəklərə ildırımın düşmə riski daha çoxdur. Güclü yağışlı şimşəkli havada açıq sahələrdə qalanlar üçün isə ən təhlükəsiz yer avtomobilin içi və ya digər bağlı metal konstruksiyalardır. Təhlükə zamanı avtomobili saxlayıb, şüşələri qaldırıb, radioantenanı endirib və avtomobildə oturarkən onun metal hissələrinə toxunmaq olmaz. İldırım düşən ərəfələrdə avtomobili ağac altında saxlamaq da təhlükəlidir. Mütəxəssislər bildirirlər ki, meşədə açıq havada çadır qurmaq olmaz. İslanan bədən və paltarlar ildırım vurma təhlükəsini artırır. Buna görə də çox adam deyir ki, sürü olan yerə ildırım çox düşür. Bu, qoyun sürüsünün islanmış yunu ilə əlaqədardır. Yağışlı ildırımlı havada bayırda və evdə telefonla danışmaq olmaz. Həmçinin təhlükə vaxtı dəmir yolunun yaxınlığında dayanmaq məsləhət deyil. Mütəxəssislər bildirirlər ki, əgər ildırım çaxan zaman qrup halındasınızsa, toplu halda qalmayın, bir-birinizdən ən azı 1,5 metr məsafədə dayanın.

Bəs ildırımvurmanın nəticəsi nə ola bilir?

İldırımvurma nəticəsində insan bədənində patoloji dəyişikliklər baş verir. Tənəffüs və ürək-qan-damar sisteminin fəaliyyəti pozulur. Eşitmə, görmə qabiliyyəti, şüuru və yaddaşı ilə bilər. Bədəndə yanıqlar ola bilər. İldırımın vurması nəticəsində zərərçəkmişin bədənində ildırımın izi, giriş və çıxış nöqtələri görünür.

İldırım vuran adama ilkin tibbi yardım göstərilməlidir. Belə ki, ildırımvurma zamanı ürək və tənəffüs fəaliyyəti pozulduğu üçün ilk növbədə zərərçəkmişə həkim gələnə qədər ürəyi masaj edib və süni tənəffüs verilməlidir. İldırımvurma zamanı ölümün səbəbi ürək-qan-damar sisteminin və tənəffüs mərkəzinin fəaliyyətinin dayanmasıdır.

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**



## Bu gün Bakıda güclü külək əsəcək

**Azərbaycanda iyulun 23-də gözlənilən hava şəraiti açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən Musavat.com-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında sabah hava yağmursuz keçəcək. Güclü şimal-qərb küləyi əsəcək.**

Havanın temperaturu Abşeron yarımadasında gecə 21-25, gündüz 28-33, Bakıda gecə 23-25, gündüz 30-32 dərəcə isti təşkil edəcək.

Atmosfer təzyiqi normadan aşağı 756 mm civə sütunu, nisbi rütubət gecə 65-75, gündüz 45-55 faiz olacaq.

Abşeron çimərliklərində gözlənilən hava şəraitinə gəlincə, güclü şimal-qərb küləyi əsəcək. Dəniz suyunun temperaturu şimal çimərliklərində (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zağulba) 22-23, cənub çimərliklərində (Türkan, Hövsan, Sahil, Şıx) 23-24 dərəcə isti təşkil edəcək.

Azərbaycanın rayonlarında iyulun 23-də hava əsasən yağmursuz keçəcək, lakin axşam bəzi dağlıq ərazilərdə yağış yağacağı gözlənilir. Şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Qərb küləyi bəzi yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 20-25, gündüz 34-39, dağlarda gecə 14-19, gündüz 21-26 dərəcə isti təşkil edəcək.

Tibbi-meteoroloji proqnoza gəlincə, iyulun 23-də Abşeron yarımadasında xəzri küləyinin güclənəcəyi gözlənilir ki, bu da meteohəssas insanlar üçün nisbətən əlverişlidir.



## Azərbaycana gələn əcnəbilərin sayı 6,5 faiz çoxalıb

**Bu ilin yanvar-iyun aylarında Azərbaycana dünyanın 185 ölkəsindən 1410,7 min və ya 2018-ci ilin yanvar-iyun ayları ilə müqayisədə 6,5 faiz çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlib.**

"Trend"in məlumatına görə, gələnlərin 29,4 faizi Rusiya, 24,3 faizi Gürcüstan, 10,5 faizi Türkiyə, 7,5 faizi İran, 2,6 faizi Birləşmiş Ərəb Əmirlikləri, 2,4 faizi Səudiyyə Ərəbistanı, hər birindən 1,9 faiz olmaqla Ukrayna və Hindistan, 1,5 faizi Türkmənistan, hər birindən 1,4 faiz olmaqla Böyük Britaniya, Qazaxıstan və İraq, 1,3 faizi Pakistan, 12,4 faizi digər ölkələrin vətəndaşları, 0,1 faizi isə vətəndaşlığı olmayan şəxslər olub.

Gələnlərin 68 faizini kişilər, 32 faizini isə qadınlar təşkil edib.

Ölkəmizə yanvar-iyun aylarında gələnlərin sayında daha çox artım Misir (83,1 faiz), Türkmənistan (81 faiz), Hindistan (80,3 faiz), Çin (77,1 faiz), Səudiyyə Ərəbistanı (76,7 faiz), Macarıstan (52,4 faiz), Böyük Britaniya (35,7 faiz), Kanada (30,8 faiz), Cənubi Koreya (29,5 faiz), Almaniya (27,2 faiz), Yaponiya (24,6 faiz), Pakistan (24,4 faiz), Gürcüstan (22,8 faiz) və Polşa (20,2 faiz) vətəndaşları arasında qeydə alınıb.

2019-cu ilin yanvar-iyun aylarında Avropa İttifaqına üzv ölkələrdən gələnlərin sayı 24,3 faiz artaraq 66,5 min nəfər, MDB ölkələrindən gələnlərin sayı isə 5,0 faiz artaraq 502,5 min nəfər olub.

Ölkəmizə gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin 59 faizi dəmir yolu və avtomobil, 40,2 faizi hava, 0,8 faizi isə su nəqliyyatından istifadə edib.

YENİ MÜSAVAT
Son səhifə
N 153 (7323) 23 iyul 2019

## İnsan gözəldirsə, onunla həmsöhbət olmaq çətindir

**İngiltərə və İsrail universitetlərinin apardığı birgə araşdırmaya görə, gözəl insanlar darıxdırıcı olur. Türkiyə mətbuatının verdiyi xəbərə görə, tədqiqat qrupunun üzvü olan Lihi Sandel-Kaspi elmi araşdırma barədə jurnalistlərə açıqlama verib: “Gözəl insanlar şəraitə və qayda-qanunlara daha çox bağlı olurlar. Daha az cazibədar insanlar isə azad həyat tərzini seçirlər. Buna görə də gözəl və cazibədar insanlar həyatdan daha az zövq alırlar. Çox gözəl qadın və kişilər başqalarını daha az vecinə alan, daha soyuq və eqoist olurlar”.**

Araşdırma nəticəsində bəlli olub ki, gözəl olmayan insanlar gözəl insanlarla müqayisədə daha istiqanlı və mehriban olurlar.

## Amerikada nə qədər çox iş varsa, bir o qədər işləmək istəyən yoxdur

**Son bir ildə Amerikada işləmək istəyən insanların sayında azalma müşahidə olunub. Bu, son 34 ilin ən aşağı göstəricisi kimi qeydə alınıb. Elə həmin səbəbdən də 4 milyon işçiyə ehtiyac duyan Amerikada bəzi vəzifələr boş qalıb. İqtisadi böhrandan çıxışın ən önəmli sübutu kimi açılan yeni iş yerlərində isə amerikanlar işləmək istəmir. Araşdırmalar ölkədə xalqın get-gedə tənbəlləşdiyini ortaya qoyub. “Express Employment Professionals” təşkilatının araşdırma nəticələrinə görə, amerikanlar artıq iş axtarmağı bir kənara qoyub. Hər gün daha çox insan sosial güzəştlər üçün müvafiq qurumlara müraciət edir.**

# İndoneziyada kök polisləri arıqlamağa göndəriblər



**İndoneziyanın Şərqi Yava bölgəsində kök polisləri Mocokerto şəhərindəki arıqlama düşərgəsinə göndəriblər. Onlar burda on günlük arıqlama proqramından keçəcəklər. Bu barədə “The Jakarta Post” nəşri xəbər verib. Şərqi Yava polis təmsilçisi Barunqa Mangera dedi ki, 15-26 iyul tarixlərində keçiriləcək fitnes-proqrama piylənmədən əziyyət çəkən 50 polis əməkdaşı cəlb olunub.**

Düşərgədə təcrübəli diyetoloqlar, fitnes mütəxəssisləri və tibb işçiləri çalışırlar. Polisləri piyin əridilməsi üçün bir sıra məşqlər, eləcə də qaçış, üzmə və aerobika ilə məşğul olma gözləyir. Bundan başqa, arıqlayanlara lazımi psixoloji yardım da göstəriləcək. Ehtimal edilir ki, bundan asılı olaraq, polis daha çəld və operativ olacaq.

# Aşiq olan insan qərar verə bilmir



**İngiltərənin London Universitetində nevroloji professorlardan olan türkiyəli Semir Zeki və komandası aşiq olan insanın beynində necə reaksiyalar getdiyini araşdırıb. Araşdırmanın nəticələrinə görə, vurulan zaman qərar verməmizi təmin edən frontal (ön) hissə “əhatə dairə”sindən kənarda qalır və demək olar ki, funksionallığını itirir. Qorxu və neqativ hisslərə nəzarət edən bölümlər isə dərhal aktiv hala gəlir. Mütəxəssislər deyir ki, bu, aşiq olduğumuz zaman niyə qərar verə bilmədiyimizi və tarazlığımızı itirdiyimizi açıqlayır.**

## Sevgilisini dietaya məcbur etmək istəyirdi, həbs olundu

**Böyük Britaniyanın Şeffild məhkəməsi Məhəmməd Ənvər adlı sakinin həbsinə qərar verib. Buna səbəb onun öz sevgilisini fitneslə məşğul olmağa, eləcə də dietaya məcbur etməsi olub. Kişi 16 ay müddətinə azadlıqdan məhrum edilib. Bu, Məhəmmədin öz sevgilisi Cemma Doertiyə qarşı emosional təzyiqin nəticəsi olub. Kişi onu bəzi idman hərəkətlərini dəfələrlə təkrarlamağa, eləcə də çörək və şirniyyatdan imtinaya vadar etmək istəyib. Bundan başqa, o, sevgilisinin paltarlarını özü seçirmiş. 30 yaşlı Doerti məhkəmədə deyib ki, Ənvər ona dünyanın məşhur, gözəllik simvolu sayılan qadınlarının fotolarını göstərərək, “sən niyə onlar kimi gözəl görünə bilmirsən” deyə tez-tez soruşurmuş. Cemmanın sözlərinə görə, sevgilisi ondan hər gün qaçış aparatında 500 kilokalori “yandırmasını” tələb edirmiş: “Bir dəfə mən 425 kilokalori itirdiyim dəqiqədə qaçış aparatından düşdüm. Çünki o yatmışdı. Mən ondan çox qorxurdum”.**

Britniyalı qız bildirib ki, münasibətlərinin başlanğıcında Ənvər özünü belə aparmırdı. Son bir ildə isə “fitness zorakılıq” başlanıb: “Onun əhvalı tez-tez korlanırdı və mənə həyatı zəhər edirdi”.

O, eyni zamanda etiraf edib ki, Ənvər onu tez-tez döyürmüş. Hətta bir dəfə buna görə intihara cəhd edib.

## Bunları bilirsinizmi?

* İnsanın dərisi ömrü boyu min dəfə dəyişilir.
* İnsan beyni saniyənin 20-də biri qədər vaxt ərzində gördüyü obyekti müəyyənləşdirir.
* Son 4 min il ərzində heç bir heyvan əhilləşdirilib ev heyvanına çevrilməyib.
* Gözü açıq halda asqırmaq mümkün deyil.
* Qadınlar kişilərə nisbətən gözlərini iki dəfə çox qırpırlar.
* İnsan orqanizmində yaşayan bakteriyaların ümumi çəkisi 2 kq-dır.
* Sorğu nəticələrinə görə, səhər işə gedəndə arvadını öpən kişilərin gəliri daha çox olur.
* Qadın orqanizmi bütün həyatı boyu 7 milyon toxum hüceyrəsi hasil edir.
* Gülüş zamanı insanın 17 əzələsi “işləyir”.
* Göy gözlü insanlar ağrılara daha həssas olur.
* İnsanın dilinin izi də barmaq izləri kimi unikaldır.
* Bir damcı neft 25 litr içməli suyu yararsız edir.
* İnsanın gözü 10 milyon rəng çalarını seçməyə qadirdir.
* Yaşlı insanın bədənində olan sinirləri sıra ilə düzsək uzunluğu 75 km-ə çatar.
* İnsanın ürəyi il ərzində 36 milyon 800 min dəfə döyünür.
* İnsanın ağız boşluğunda 2 min dad reseptoru var.
* Dünyada ən çox yayılmış xəstəliklər diş əti xəstəlikləridir.
* Pişiyin hər qulağında 32 əzələ var.
* Cırcırama cəmi 24 saat yaşayır.
* İlbiz 3 ilə qədər yata bilər.
* Dəvəquşunun gözü beynindən daha böyükdür.
* Qayçını Leonarda Da Vinçi icad edib.
* Kəpənəklərin dad resoptorları ayaqlarında olur.
* Dünyada toyuqların sayı insanların sayından çoxdur.
* Hər 2 həftədən bir mədəmiz yeni daxili təbəqə yaratmalıdır, yoxsa özü özünü həzm edər.

## 50 il əvvəl yazılmış gizli məktub tapıldı



**Avstraliyalı yeniyetmə 50 il bundan qabaq yazılmış və butulkanın içinə gizlədilmiş yazı tapıb. Bu barədə "Daily Mail" nəşri xəbər verib. 13 yaşlı britaniyalı Pol Qilmor ailəsi ilə birgə İngiltərənin Sautqempton şəhərində kruizdə idi. Oğlan özünə məktub dostu tapmağa çalışıb və məktub yazıb. Həmin məktubda o özü barədə yazıb və onu hansı ünvanda tapmağın mümkün olduğunu qeyd edib.**

17 noyabr 1969-cu ildə Qilmor şüşə butulkaya bir qeyd yazıb və Hind okeanına atıb. Aradan 50 il keçəndən sonra Avstraliyadan olan 13 yaşlı Cia Elliott atası ilə birgə balıq ovuna gedəndə orada qeyri-adi bir butulka görüb. Təxmin edilir ki, butulka oğlanın əlinə çatana qədər 3.7 min kilometr məsafə qət edib.

Elliott ailəsi sosial şəbəkədə baş verənlər barədə danışıb ki, məktubun müəllifi Qilmorla əlaqə yarada bilsin. Bundan sonra ABC jurnalistləri axtarışa cəlb olunublar və onun baxışı Enni Krosslendlə əlaqə yarada biliblər. Qadın bildirib ki, qardaşı məktubunun tapılmasına çox şad olacaq. Onun sözlərinə görə, Qilmor hazırda Pribaltikada səyahət edir. “Əslində o, belə məktublardan altısını suya atıb. Bu, əla xəbərdir ki, heç olmasa onlardan biri kiməsə çatıb”.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN
e-mail adres: yenimusavat@mail.ru
Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)
Redaktor: Elşad MƏMMƏDLİ
“Yeni Müsavat”ın kompüter mərkəzində yığılıb, səhifələnib, “Azərbaycan” nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Lisenziya N: B 114
SAYI: 3.050